Rəsmi dövlət qəzeti

AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 109 (7836) ÇƏRŞƏNBƏ, 16 may 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik

Təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər bu sahəyə dövlətin böyük önəm verdiyini göstərir

Mayın 15-də Bakıda Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin yeni binasının açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.

Dövlət başçısı və xanımı kompleksin rəmzi açılışını bildirən lenti kəsdilər.

Təhsil naziri Ceyhun Bayramov Prezident İlham Əliyevə görülən işlər barədə ətraflı məlumat verdi.

Qeyd edildi ki, 2001-ci ildən fəaliyyət göstərən müasir təhsil kompleksi Azərbaycanın ilk özəl təhsil müəssisələrindən biridir. Son illərdə bu təhsil ocağına maraq artıb və nəticədə məktəbə gələn şagirdlərin sayında da böyük artım olub. Bu da təbii ki, təhsilin keyfiyyətinə təsirsiz ötüşməyib və məktəb üçün yeni binanın tikintisi artıq zərurətə çevrilib. Buna görə də məktəb üçün əvvəlkindən daha böyük, müasir və dünya standartlarına uyğun yeni bina inşa edilib.

Kompleksdə müasir tələblərə cavab verən yüksək keyfiyyətli maddi-texniki baza yaradılıb. Heydər Əliyev adına Müasir Təhsil Kompleksi indi paytaxtımızın memarlıq baxımından zövq oxşayan ən yaraşıqlı binalarından biridir.

Dövlət başçısı və birinci xanım təhsil ocağında yaradılan şəraitlə tanış oldular.

Müasir təhsil kompleksi şagirdlərin milli dəyərlərə sadiq, yüksək təhsilli, dövrün tələblərinə uyğun bilik və bacarıqlara sahib şəxsiyyət kimi yetişmələri üçün hər cür şərait yaradır. Məktəbin foyesində ümummilli lider Heydər Əliyevin abidəsi qoyulub. Məlumat üçün qeyd edək ki, xalqımızın ümummilli lideri Heydər Əliyev 2001-ci il sentyabrın 1-də bu kompleksin təntənəli açılışında iştirak edib. Elə o vaxtdan bu təhsil ocağı ulu öndərin açılış mərasimində verdiyi tövsiyələrə əsaslanaraq uğurla çalışır. Məktəbdə Heydər Əliyev guşəsi də yaradılıb. Müxtəlif fotostendlər, əyani vəsaitlər ulu öndər Heydər Əliyevin siyasi irsinin və zəngin dövlətçilik fəaliyyətinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Kompleksdə Prezident İlham Əliyevin təhsilə diqqət və qayğısını əks etdirən guşə də yaradılıb. Təhsil ocağı üç hissədən - uşaq bağçası, orta ümumtəhsil məktəbi və orta məktəbdən ibarətdir və onların hər birində üç bölmə - Azərbaycan, rus və ingilis bölmələri fəaliyyət göstərir. Ən müasir avadanlıqla təchiz olunan funksional bina tədrisin keyfiyyətli təşkili üçün hər cür şəraitə malikdir. Kompleksin akt zalında isə təhsillə bağlı müxtəlif tədbirlərin keçirilməsi üçün bütün imkanlar var. Sinif otaqlarının, fənn kabinetlərinin hamısı ən müasir tələblər səviyyəsində qurulub. Şagirdlərin nəzəri biliklərinin fizika, kimya və biologiya laboratoriyalarında tətbiqi üçün də zəruri avadanlıq quraşdırılıb. Kompleksin əsas məqsədlərindən biri sağlam təhsil mühiti yaratmaq və şagirdlərin hərtərəfli inkişafını təmin etməkdir. Məktəbdə dərslər şagirdlərin mükəmməl təhsili ilə yanaşı, həmçinin onların sosial və mənəvi inkişafına da yönəldilib. Qarşıya qoyulan məqsədlərdən biri də təhsil sistemində bilikli şagird yetişdirməklə yanaşı, onların həm də sosial həyata hazırlanmasını təmin etməkdir. Elə bu məqsədlə də "Sosial-fəal məktəb" konsepsiyasını əsas götürən Heydər Əliyev adına Müasir Təhsil Kompleksində sosialyönümlü şəxsin yetişdirilməsi üçün lazımi mühit yaradılıb. Bu model şagirdlərin istənilən şəraitə sərbəst və tez uyğunlaşması, sosial həyatlarının daha maraqlı və zəngin olmasına imkan yaratmaqla yanaşı, hər bir şagirdin fərdi qabiliyyətinin və potensialının üzə çıxarılmasına kömək edir.

Ardı 2-ci səh.

İlham Əliyevin təcrid siyasəti Ermənistanın sosial-iqtisadi iflasını, dövlət böhranını daha da dərinləşdirəcək

Bütün regional layihələrdən, inteqrasiya proseslərindən kənarda qalan Ermənistan işğalçılıq siyasətindən əl çəkməyənə qədər istənilən hakimiyyət dəyişikliyi bu ölkədəki problemləri aradan qaldırmaq iqtidarında deyil

Nəhayət, erməni xalqı "layiq" olduğu növbəti liderini əldə etdi. Təqribən iki ay çəkən kütləvi etirazlardan sonra indiyədək Ermənistanın siyasi mühitində əhəmiyyətli sosial çəkiyə və ictimai nüfuza malik olmayan Nikol Paşinyan dövlət hakimiyyətinin ali kürsüsünə əyləşdirildi.

Dəyişən Ermənistanın hakimiyyətidir, işğalçı status isə qalmaqdadır

Bununla da Ermənistanda daha bir siyasi eyforiya dövrü başa çatmaqdadır. Ehtiraslar səngidi, meydanlar boşaldı, Sarkisyan və onun komandası tələb olunduğu kimi hakimiyyətdən uzaqlaşdırıldı və yeni şahmat fiqurlarından növbəti hökumət formalaşdırıldı. Bununla da siyasi dövriyyəyə yeni mövzular gətirildi. Bu gün təkcə Ermənistan əhalisini deyil, həm regionu, həm regiona qonşu dövlətləri, həm də Cənubi Qafqazda geosiyasi və geoiqtisadi maraqları olan güc mərkəzlərini əsasən bu suallar düşündürür:

- *"Əlvan inqilab" dalğasından sonra Ermənistanın yeni daxili və xarici siyasəti necə və hansı qüvvələrin ssenarisi əsasında qurulacaqdır?*
- *Serj Sarkisyanın qeyri-müəyyən oriyentasiyalı "karusel siyasətini" əvəz edən Nikol Paşinyan populizmi erməni xalqına vəd etdiyi dəyişiklikləri gətirə biləcəkmi?*
- *Ümumiyyətlə, yeni hakimiyyət dayanıqlı olacaqmı və yeni parlament seçkiləri nə vaxt keçiriləcək?*

Ermənistanın siyasət səhnəsində parlaq obraz olmayan Nikol Paşinyanın birdən-birə "ulduz" kimi parlamış, hakimiyyətdən, korrupsiya, yoxsulluq və səfalətdən narazı kütlənin təzyiqi və xaricdən istiqamətləndirilən dəstək hesabına ölkənin siyasi elitasını radikal şəkildə dəyişmiş, əvvəlcə Serj Sarkisyanı, sonra onun formalaşdırdığı hökuməti hakimiyyətdən uzaqlaşdıra bilmişdi. Növbədənkənar seçkilər keçiriləcəyi təqdirdə hakim Respublika Partiyası da deputat mandatlarından məhrum olacaq. Hakimiyyətə yiyələndiyi ilk günlərdə isə Ermənistanın baş müxalifətçisinin siyasi illüziyaları tədricən seyrəlməyə başlamış, mitinqlərdə irəli sürdüyü tələblərin və əhalinin gözləntilərinin bir çoxunun hətta yeni komanda ilə yerinə yetirilməsinin mümkünsüzlüyünü dərk etmişdir.

Erməni xalqının Nikol Paşinyana bağladığı ümidləri və gözləntiləri olduqca yüksəkdir. Reallıqlar isə bu ümidləri də sabun köpüyü kimi dağıtmaqdadır. Nikol Paşinyanın baş nazir kimi Ermənistan parlamentindəki pafoslu çıxışları bir daha göstərdi ki, etirazçı kütləni tələblə, populist vədlərlə ələ alan yeni siyasi fiqurlar ölkənin daxili və xarici siyasətində əhəmiyyətli islahatlar aparmaq, rasional, reallıqlara söykənən təkliflər irəli sürmək, ən nəhayət, onları həyata keçirmək potensialına malik deyillər.

Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına, iqtisadiyyatın böyük sıçrayışlarla inkişaf etdirilməsinə, ölkəsini guya regionun "lider dövlətinə" çevrilməsinə dair Paşinyanın səsləndirdiyi iddialar və bol vədlər əslində, gerçəklikdən tamamilə uzaqdır və Ermənistanın düşdüyü böhranlı vəziyyəti, ölkənin acınacaqlı mənzərəsini özündə əks etdirmir.

Ardı 5-ci səh.

Azərbaycan Avrasiyanın ən səmərəli logistika mərkəzinə çevrilir

Bakı Beynəlxalq Dəniz Ticarət Limanının fəaliyyətə başlaması ilə ölkəmiz Xəzərdə dayanıqlı tranzit zəncir yaradır

Nəqliyyat və logistika dünyada ən dinamik inkişaf edən sahələrdən biridir. Bu gün müstəqil Azərbaycan bir sıra irimiqyaslı beynəlxalq nəqliyyat layihələrinin həm təşəbbüskarı, həm də iştirakçısıdır.

Prezident İlham Əliyevin apardığı müstəqil siyasət nəticəsində ölkəmizdə artıq innovativ texnologiyalara əsaslanan dayanıqlı nəqliyyat sistemi formalaşdırılır. Ötən həftə tariximizdə ilk dəfə olaraq Dünya Limanlar Konfransının Bakıda keçirilməsi, dünən isə Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışı bir daha təsdiq edir ki, müstəqil Azərbaycan Avrasiyanın əsas nəqliyyat qovşaqlarından birinə çevrilməkdədir.

Bakı artıq Xəzər hövzəsində nəqliyyat-logistika mərkəzi kimi tanınır

Öncə bir daha onu vurğulayaq ki, mayın 9-10-da Bakıda Dünya Limanlar Konfransı keçirildi. Dünyanın aparıcı liman dövlətləri sayılan ABŞ, Rusiya, Çin, Hindistan, İndoneziya, Filippin, Yaponiya, Almaniya, Fransa, İspaniya daxil olmaqla dünyanın 65 ölkəsindən beynəlxalq limanların, biznes icmasının, gəmiçilik və logistika üzrə iri şirkətlərin 400-dən çox nümayəndəsi bu konfransda iştirak etdi.

Konfransın açılışında çıxış edən Beynəlxalq Limanlar Assosiasiyasının prezidenti Santiaqo Qarsiya Mila Bakının qədim İpək yolunun mərkəzində yerləşdiyini deyərək bildirdi ki, konfransın bu şəhərdə keçirilməsi təsadüfi deyil. Bakı konfransı bu regionda Beynəlxalq Limanlar Assosiasiyasının keçirdiyi ilk tədbirdir.

Mənzil qərargahı Tokio şəhərində olan bu qurum 90 ölkənin təqribən 180 limanını və limanlarla əlaqəsi olan 140 müəssisəsini təmsil edir. Təşkilatın üzvləri dünya dəniz ticarətinin 60 faizindən çoxunu həyata keçirir, beynəlxalq konteyner marşrutlarının 80 faizinə nəzarət edirlər. Qurumun illik konfransları 2013-cü ildə Los-Anceles, 2014-cü ildə Sidney, 2015-ci ildə Hamburq, 2016-cı ildə Panama və 2017-ci ildə Bali kimi böyük liman şəhərlərində keçirilib.

Dünya Limanlar Konfransı çərçivəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə dostluq və əməkdaşlıq barədə 4 anlaşma memorandumu imzalanıb.

Azərbaycana böyük dividendlər gətirəcək liman kompleksi

Mayın 14-də isə ölkədə daha bir tarixi hadisə yaşandı. Prezident İlham Əliyevin iştirakı ilə Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılış mərasimi baş tutdu.

Öncə onu vurğulayaq ki, bu liman birinci kateqoriya limanlar üçün müəyyən edilmiş texniki tələblərə uyğun layihələndirilib və inşa olunub.

Ümumiyyətlə, son illər Azərbaycanda nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, tranzit potensialının daha da artırılması ilə bağlı həyata keçirilən dövlət siyasəti sosial-iqtisadi inkişafa mühüm töhfə verir. İqtisadiyyatın, xüsusilə qeyri-neft sektorunun tərəqqisində mühüm rolu olan nəqliyyat infrastrukturunun inkişafı, tranzit imkanlarının genişləndirilməsi üçün önəmli işlər görülür. Bütün bunlar isə Azərbaycana böyük siyasi və iqtisadi dividendlər gətirir, ölkəmizin dünyada və regionda mövqeyini daha da möhkəmləndirir.

Ardı 5-ci səh.

Güclü dövlətçiliyi təmin edən siyasət

Ümummilli lider, müasir Azərbaycan dövlətinin memarı Heydər Əliyevin anadan olmasının 95 illiyi ölkənin hər yerində böyük təntənə və coşqu ilə qeyd edildi. Qarşıdan isə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü gəlir. Xalqımızın əziz tutduğu bu tarixlər bir-biri ilə sıx bağlıdır. Bu əlamətdar günləri bir-birinə bağlayan amil Heydər Əliyevin qurduğu və Xalq Cümhuriyyətinin varisi olan bugünkü müstəqil, qüdrətli Azərbaycan dövlətidir.

Əbədi və sarsılmaz müstəqillik

Tarix sübut edir ki, qurulmaqda olan hər bir dövlət ilk növbədə güclü ideoloji təməllərə, sosial-iqtisadi bazaya və legitim hüquqi münasibətlər sisteminə dərin ehtiyac duyur. Amma hər dövlət və ya xalq bu prosesdən uğurla çıxa bilmir. Yalnız müdrik şəxsiyyətlərin rəhbərlik etdikləri dövlətlər bu mürəkkəb və çoxşaxəli fəaliyyəti yaradaraq koordinasiyalı şəkildə cəmiyyətin bütün təbəqələri üçün dərk edilmiş zərurət halına gətirə bilir. Ümummilli lider Heydər Əliyev də məhz belə unikal keyfiyyətlərə malik dahi şəxsiyyət kimi nəinki Azərbaycanı müstəqil dövlətə çevirdi, həm də onun dönməzliyini təmin etdi.

Bu gün artıq beynəlxalq aləmdə böyük siyasi çəkisi olan, iqtisadi potensialına və inkişaf tempinə görə bir çox dünya ölkələrini geridə qoyan Azərbaycan yerləşdiyi regionun lider dövlətidir. Bu nailiyyətlərin əldə olunması yolunda ölkəmiz tarixin çox çətin və keşməkeşli sınaqlarına məruz qalıb. Məhz bütün çətinliklərə mətanətlə sinə gərərək respublikanı xilas etmiş bir şəxsiyyətin - Heydər Əliyev kimi dahi liderin əzmi, iradəsi və qüdrəti hesabına Azərbaycan xalqı bu sınaqlardan üzüağ çıxa bildi.

Heydər Əliyev vətənin ən ağır dövründə xalqın gələcək taleyi üçün məsuliyyəti öz üzərinə götürərək bir çox siyasi xadimin edə bilmədiyi və bilməyəcəyi işləri gerçəkləşdirdi. Həqiqətdir ki, Azərbaycanın dövlət müstəqilliyinin etibarlı əsasları Heydər Əliyevin bilavasitə rəhbərliyi altında, onun dühası, qətiyyətli siyasəti və dövlətçilik təcrübəsi nəticəsində yaradıldı. Ulu öndərin xalq və tarix qarşısında ən böyük xidməti budur ki, o, əzəli torpaqlarımıza sahib olmaq yolunda kəskin ziddiyyətlərin mövcud olduğu şəraitdə Azərbaycanın dövlətçiliyini qorudu, ölkəni parçalanıb yox olmaq təhlükəsindən xilas etdi, bununla da xalqın ən ümdə hüququ olan azad yaşamaq hüququnu təmin etdi.

Ardı 7-ci səh.

Təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər bu sahəyə dövlətin böyük önəm verdiyini göstərir



Əvvəli 1-ci səh.

Məktəbdə olimpiada qrupları, şagird elmi cəmiyyəti, şagird parlamenti fəaliyyət göstərir. Şagirdlər olimpiadalarda, bilik yarışlarında yüksək yerlər qazanırlar, konfranslarda uğurla çıxış edirlər. Bu təhsil ocağında ən qabaqcıl, yüksəkixtisaslı müəllimlər fəaliyyət göstərirlər. İngilis bölməsində dərslər "Cambridge" proqramı əsasında keçirilir. "Cambridge" Checkpoint vasitəsilə müəllimlər şagirdlərin davamlı inkişafını qiymətləndirir, onların güclü və zəif cəhətlərini müəyyən edirlər. Proqramı bitirən şagirdlərə dünyanın bütün ölkələrində tanınan və yüksək səviyyədə qiymətləndirilən IGCSE sertifikatları verilir. Məktəbdə zəngin kitabxana da fəaliyyət göstərir. Kompleksin açıq idman meydançaları isə yüksək standartlara uyğun şəkildə qurulub.

Müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Təhsildəki nailiyyətlər hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycanda son illər təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər bu sahəyə dövlətin böyük önəm verdiyini göstərir. Təbii sərvətlərlə zəngin olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə etməklə insan kapitalının yaradılması və daha da inkişaf etdirilməsini başlıca hədəf seçib. Buna görə də neft gəlirləri Azərbaycanda həm də təhsilin, elmin inkişafına yönəldilib. Heydər Əliyev adına Müasir Təhsil Kompleksində yaradılan şərait isə bir daha təsdiqləyir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən təhsil islahatları uğurlu nəticələr verir. Bu da şagirdlərin yüksək səviyyədə təhsil almalarına, onların elmin sirlərinə daha dərindən yiyələnmələrinə hərtərəfli imkanlar açır.

Dövlət başçısı və birinci xanım kompleksin bağçasında yaradılan şəraitlə də tanış oldular. 112 yerlik bağçada uşaqların gələcəyin sağlam vətəndaşı kimi yetişmələri üçün hərtərəfli şərait yaradılıb. Burada qruplar yaradılarkən müasir təlim-tərbiyə qaydaları rəhbər tutulub. Uşaqların istirahəti və əyləncəsi üçün geniş imkanlar açılıb. Bağçada balacaların intellektual, fiziki və əqli inkişafı, onların istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması diqqət mərkəzində saxlanacaq.

Qeyd edək ki, ölkəmizdə təhsilin inkişafında, onun maddi-texniki bazasının möhkəmlənməsində Heydər Əliyev Fondunun da müstəsna xidmətləri var. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramları və digər layihələri bu sahənin inkişafında mühüm rol oynayıb. Həmin proqram və layihələrin uğurlu olmasını şərtləndirən əsas amillərdən biri də Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu məsələləri daim diqqətdə saxlamasıdır.

Müasir təhsil kompleksində yaradılan şərait həm də onu göstərir ki, Azərbaycanda təhsilin və elmin inkişafına ən yüksək səviyyədə dövlət qayğısı var. Çünki dövlətin yürütdüyü siyasətin prioritetlərindən biri də insan kapitalının daha da inkişaf etdirilməsidir. Bu baxımdan təhsil sahəsinə qoyulan investisiyalar mühüm əhəmiyyət kəsb edir.

Niderland ilə Azərbaycan arasında əməkdaşlıq bundan sonra da genişlənəcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Niderland Kralığı Senatının sabiq sədri, Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul edib. AZƏRTAC xəbər verir ki, Rene Van der Linden dövlətimizin başçısına prezident seçkilərində qələbəsi münasibətilə və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

Rene Van der Linden ADA Universiteti ilə birgə hazırlanmış və Azərbaycanın regionlarının inkişafı, investisiya qoyuluşu, kənd təsərrüfatı, energetika, təcrübə mübadiləsi, turizm sahələrində əməkdaşlığı nəzərdə tutan master planın həyata keçirilməsi ilə bağlı gedən işlərdən danışdı.

Prezident İlham Əliyev görülən işlərin önəmini vurğulayaraq əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.

"Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununu "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 7, maddə 504; 2013, № 3, maddə 224) 7.2-ci maddəsində "işsizlik müavinətinin" sözləri "işsizlikdən sığorta ödənişinin" sözləri ilə əvəz edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 aprel 2018-ci il

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Əziz Prezidentim!

Prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Sizin dəstəyinizlə Fransa-Azərbaycan münasibətlərinin inkişafından çox məmnunam.

Dərin hörmət və ehtiramla,

Jan-Fransua MANSEL,
Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti

Avropa Gənclər Olimpiya Festivalının 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Avropa Olimpiya Komitəsinin təşəbbüsü ilə 2019-cu il 20-28 iyul tarixlərində Avropa Gənclər Olimpiya Festivalının Bakı şəhərində keçirilməsi haqqında qərar qəbul edilmişdir. Bu, Azərbaycanın idman siyasətinin növbəti qələbəsi və beynəlxalq federasiyaların ölkəmizdə aparılan işlərə, həmçinin idman və bədən tərbiyəsi sahəsində nailiyyətlərimizə verilən qiymətin daha bir təzahürüdür. Respublikamızın artan potensialı nəticəsində son illər Azərbaycanda beynəlxalq miqyaslı tədbirlərin, o cümlədən bir çox idman növləri üzrə dünya və Avropa çempionatlarının, dünya kuboku və Qran-pri yarışlarının uğurlu təşkilinin ənənəvi hal alması Avropa Gənclər Olimpiya Festivalının da yüksək səviyyədə keçiriləcəyinə əminlik yaradır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2019-cu il 20-28 iyul tarixlərində Avropa Gənclər Olimpiya Festivalının Bakı şəhərində layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Avropa Gənclər Olimpiya Festivalının 2019-cu il 20-28 iyul tarixlərində Bakı şəhərində keçirilməsi üçün aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

Təşkilat Komitəsinin sədri

Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Təşkilat Komitəsi sədrinin müavini

Azad Rəhimov - Azərbaycan Respublikasının gənclər və idman naziri, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti

Təşkilat Komitəsinin üzvləri

Yusuf Məmmədəliyev - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri
Elmar Məmmədyarov - Azərbaycan Respublikasının xarici işlər naziri
Ramil Usubov - Azərbaycan Respublikasının daxili işlər naziri
Kəmaləddin Heydərov - Azərbaycan Respublikasının fövqəladə hallar naziri
Şahin Mustafayev - Azərbaycan Respublikasının iqtisadiyyat naziri
Samir Şərifov - Azərbaycan Respublikasının maliyyə naziri
Mikayıl Cabbarov - Azərbaycan Respublikasının vergilər naziri
Oqtay Şirəliyev - Azərbaycan Respublikasının səhiyyə naziri
Əbülfəs Qarayev - Azərbaycan Respublikasının mədəniyyət naziri
Ramin Quluzadə - Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri
Ceyhun Bayramov - Azərbaycan Respublikasının təhsil naziri
Səfər Mehdiyev - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri
Mədət Quliyev - Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi
Elçin Quliyev - Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi
Vüsal Hüseynov - Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi
Cahangir Əsgərov - "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti
Etibar Pirverdiyev - "Azəreneriji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti
Balababa Rzayev - "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri
Çingiz Hüseynzadə - Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti
Anar Ələkbərov - Heydər Əliyev Mərkəzinin direktoru
Vüsal Kərimli - Bakı Nəqliyyat Agentliyinin direktoru
Ülvi Mehdiyev - Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri
Ağacan Əbiyev - Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin baş katibi
Xəzər İsayev - Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti
Azər Əliyev - Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin baş katibinin köməkçisi
Fərid Mansurov - Olimpiya çempionu.

2. Bu sərəncamın 1-ci hissəsi ilə yaradılan Təşkilat Komitəsi 2019-cu il 20-28 iyul tarixlərində Avropa Gənclər Olimpiya Festivalının Bakı şəhərində keçirilməsinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 may 2018-ci il

"Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1081-VQD nömrəli Qanununun tətbiqi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1081-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 may 2018-ci il

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Cinayət Məcəlləsini "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 12, (I kitab), maddə 2231; Azərbaycan Respublikasının 2017-ci il 6 mart tarixli 1037-VQD nömrəli Qanunu) 213-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Adında "Vergi" sözü "Vergiləri, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını" sözləri ilə əvəz edilsin.

2. 213.1-ci maddəyə "vergiləri" sözündən sonra ", işsizlikdən sığorta" sözləri əlavə edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 aprel 2018-ci il

"Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1074-VQD nömrəli Qanununun tətbiqi barədə

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1074-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 may 2018-ci il

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsini "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12, I kitab, maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19; Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 969-VQD nömrəli, 2018-ci il 1 fevral tarixli 981-VQD, 984-VQD nömrəli, 13 fevral tarixli 1002-VQD nömrəli, 6 mart tarixli 1035-VQD və 1038-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 410-cu maddə üzrə:

1.1. adında və 410.1-ci maddədə (birinci halda) "Dövlət büdcəsindən" sözlərindən sonra "və büdcədənkənar dövlət fondlarından" sözləri əlavə edilsin;

1.2. 410.1-ci (ikinci və üçüncü hallarda), 410.2-ci və 410.3-cü maddələrdə "dövlət büdcəsindən" sözlərindən sonra "və büdcədənkənar dövlət fondlarından" sözləri əlavə edilsin.

2. 460-cı maddənin adına və dispozisiyasına "və ya məcburi dövlət sosial sığorta haqlarını" sözlərindən əvvəl ", işsizlikdən sığorta" sözləri əlavə edilsin.

3. Aşağıdakı məzmunda 477-1-ci maddə əlavə edilsin:

"Maddə 477-1. İşsizlikdən sığorta haqqında qanunvericiliyin pozulması

477-1.1. Sığortaedən tərəfindən işsizlikdən sığorta haqqında qanunvericiliyin pozulmasına, yəni:

477-1.1.1. sığortaedən kimi sığortaçıda qeydiyyata durmamasına;

477-1.1.2. işçiləri işsizlikdən sığorta etdirməməsinə;

477-1.1.3. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada, məbləğdə və vaxtda sığorta haqqını sığortaçıya ödəməməsinə;

477-1.1.4. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 77-ci maddəsinin birinci hissəsinə uyğun olaraq işçiyə xəbərdarlıq edildiyi gündən 5 gün müddətində həmin işçinin peşəsi, ixtisası və əməkhaqqı barədə sığortaçıya rəsmi məlumat verməməsinə;

477-1.1.5. sığorta haqqının hesablanmasına və ödənilməsinə, sığorta ödənişinin təyin edilməsinə əsas olan məlumatları sığortaçıya (elektron və ya kağız daşıyıcıda) təqdim etməməsinə;

477-1.1.6. Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş hallarda özünün yenidən təşkil olunması və ya ləğv edilməsi barədə sığortaçıya məlumat verməməsinə;

477-1.1.7. sığorta haqqının hesablanmasının və köçürülməsinin uçotunu düzgün aparmamasına və bu barədə sığortaçıya hesabatı təqdim etməməsinə, sığorta ödənişi üçün əsas olan sənədlərin və məlumatların qorunub saxlanılmasını təmin etməməsinə görə -

fiziki şəxslər yüz manat məbləğində, vəzifəli şəxslər iki yüz manat məbləğində, hüquqi şəxslər dörd yüz manat məbləğində cərimə edilir.

477-1.2. Sığortaolunan tərəfindən sığorta ödənişinin miqdarının dəyişməsinə və ya dayandırılmasına səbəb olan "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş hallar barədə 10 gündən gec olmayaraq sığortaçıya məlumat verilməməsinə görə -

inzibati xəta nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir misli miqdarında cərimə edilir.".

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 aprel 2018-ci il

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1075-VQD nömrəli Qanununun tətbiqi barədə

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1075-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 may 2018-ci il

Bakı şəhəri ərazisində yeni avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri ərazisində Ziya Bünyadov prospekti ilə Balaxanı-Binəqədi avtomobil yolunu birləşdirən ümumşəhər əhəmiyyətli yeni avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 45,0 (qırx beş) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri,15 may 2018-ci il

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununu "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100; 2016, № 8, maddə 1365, № 11, maddələr 1760, 1782, 1785; 2017, № 5, maddə 726, № 6, maddə 1054, № 7, maddə 1267, № 8, maddə 1513, № 11, maddə 1974, № 12 (I kitab), maddə 2192; Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 967-VQD və 968-VQD nömrəli, 2018-ci il 6 mart tarixli 1025-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 7.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"7.1. Dövlət orqanı Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilmiş hüdudlarda dövlətin məqsəd və funksiyalarını həyata keçirən, Azərbaycan Respublikasının dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikasının büdcəsindən, sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının və işsizlikdən sığorta fondunun büdcəsindən maliyyələşdirilən, Azərbaycan Respublikasının Konstitusiyasına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq yaradılan dövlət təsisatıdır.".

2. 14.1-ci maddədə "dövlət büdcəsi vəsaitindən" sözləri "bu qanunun 7.1-ci maddəsində göstərilən mənbələrdən" sözləri ilə əvəz edilsin.

3. 25.10-cu maddənin ikinci cümləsində "dövlət büdcəsinin" sözləri "Azərbaycan Respublikasının dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin, sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının və işsizlikdən sığorta fondunun büdcəsinin" sözləri ilə əvəz edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 aprel 2018-ci il

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1077-VQD nömrəli Qanununun tətbiqi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1077-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 7.1-ci maddəsində və 25.10-cu maddəsinin ikinci cümləsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 may 2018-ci il

Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Vergi Məcəlləsini "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12, I kitab, maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2, I kitab, maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12, I kitab, maddələr 2219, 2251, 2270; Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 939-VQD nömrəli Qanunu) 102.6.1-ci maddəsində "işsizlik müavinəti" sözləri "işsizlikdən sığorta ödənişi" sözləri ilə əvəz edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 aprel 2018-ci il

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1076-VQD nömrəli Qanununun tətbiqi barədə

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1076-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 may 2018-ci il

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 23 oktyabr tarixli 3 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə"də dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 23 oktyabr tarixli 3 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə"ni "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 911-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 23 oktyabr tarixli 3 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1148, № 12, maddə 1549; 2015, № 10, maddə 1141; 2016, № 6, maddə 1055, № 10, maddə 1634, № 12, maddə 2078; 2017, № 8, maddə 1521, № 12 (I kitab), maddə 2285; 2018, № 1, maddə 48) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə"nin 3.3-cü bəndinin üçüncü cümləsində "itirilməsinə görə inzibati cərimə və şəxsiyyət vəsiqəsinin" sözləri "itirilməsi ilə əlaqədar yenidən" sözləri ilə əvəz edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 may 2018-ci il

Azərbaycan və Türkiyənin qardaşlığı bütün dünya üçün nümunədir

Azərbaycanın Türkiyədəki səfirliyi Ankaradakı Heydər Əliyev Parkında Azərbaycan Xalq Cümhuriyyətinin və Silahlı Qüvvələrimizin yaranmasının 100 illiyi münasibətilə təntənəli mərasim təşkil edib.

AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycan və Türkiyədən olan rəsmi şəxslər, generallar, diplomatlar, deputatlar, görkəmli ziyalılar, qardaş ölkə ictimaiyyətinin tanınmış simaları, qazilər, bu ölkədə yaşayan, işləyən və təhsil alan azərbaycanlılar, müdavimlərimiz iştirak ediblər.

Əvvəlcə Azərbaycan və Türkiyənin dövlət himnləri səsləndirilib.

Mərasimi giriş sözü ilə açan Azərbaycanın Türkiyədəki səfiri **Xəzər İbrahim** Azərbaycan Xalq Cümhuriyyətinin, o cümlədən Silahlı Qüvvələrimizin yaranması tarixindən danışdı. Səfir diqqətə çatdırdı ki, Silahlı Qüvvələrimizin formalaşmasında Qafqaz İslam Ordusunun göstərdiyi yardım tarixi əhəmiyyət daşıyır və Azərbaycan xalqı tərəfindən yüksək dəyərləndirilir. Bu gün sürətlə inkişaf edən Azərbaycan Ordusu dünyanın ən güclü orduları arasındadır.

Azərbaycan Xalq Cümhuriyyətinin və ordumuzun 100 illik yubileyləri münasibətilə təşkil olunan təntənəli mərasimdə iştirak edənlərə minnətdarlığını bildirən Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi **Əli Həsənov** dövlət başçısı İlham Əliyevin səmimi salamlarını Türkiyə Parlamentinin sədrinə, hökumət və dövlət təmsilçilərinə çatdırdı. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və inkişaf istiqamətləri barədə ətraflı məlumat verən Prezidentin köməkçisi diqqətə çatdırdı ki, müstəqilliyimizin dünya miqyasında tanınması və ordu quruculuğu sahəsindəki nailiyyətlər Cümhuriyyət hökumətinin əldə etdiyi ən böyük tarixi uğurlardandır. Bakının erməni-daşnak işğalından azad olunmasına tarixi töhfələr verən Qafqaz İslam Ordusu Silahlı Qüvvələrimizin formalaşmasına da kömək etməklə ölkəmizin və xalqımızın təhlükəsizliyinə dəstək olub.

Ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyası barədə danışan Əli Həsənov diqqətə çatdırıb ki, ulu öndərimiz hələ Naxçıvan Ali Məclisinin sədri olarkən Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik ənənələrinin və prinsiplərinin həyata keçməsi üçün mühüm siyasi qərarlar qəbul edib, dövlət atributlarımızın bərpasına nail olub və Azərbaycan hakimiyyətinə bu istiqamətdə dəyərli töhfələr verib. Bu məqsədyönlü siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin qeyd olunması barədə Prezidentin imzaladığı məlum sərəncam, o cümlədən dövlət başçısı tərəfindən 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunması bu istiqamətdə atılan mühüm siyasi qərarlar sırasındadır. Hazırda dünyanın bir sıra ölkələrində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı tədbirlər keçirilir. Qardaş Türkiyədə belə bir möhtəşəm mərasimin təşkili xüsusilə əhəmiyyətlidir. İstər Azərbaycan Xalq Cümhuriyyətinin qurulması, istərsə də müstəqilliyimizin bərpası Türkiyədə böyük qardaş sevinci ilə qarşılanıb. Ümummilli lider Heydər Əliyevin və Türkiyə dövlətinin banisi Mustafa Kamal Atatürkün tarixi fəaliyyətlərinin əhəmiyyətindən bəhs edən Əli Həsənov bildirdi ki, ölkələrimizin sürətli inkişafı və müstəqilliyimizin əzmlə qorunması ulu öndərlərimizin ruhunu şad edir.

Prezidentin köməkçisi çıxışında Türkiyənin Suriya ərazisində həyata keçirdiyi antiterror əməliyyatının Azərbaycanda dəstəkləndiyini qeyd edərək bildirib ki, bütün bu tədbirlər Türkiyənin təhlükəsizliyi, terrordan xilas olması, əhalinin əmin-amanlığını təmin etmək üçün atılan addımlardır. Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın nümayiş etdirdikləri siyasi iradə xalqlarımızın və ölkələrimizin təhlükəsiz gələcəyinə xidmət edir.

Ötən əsrin əvvəllərində əldə etdiyimiz müstəqilliyin yenidən bərpa olunmasını Azərbaycan və Türkiyənin ortaq sərvəti kimi dəyərləndirən Türkiyə Böyük Millət Məclisinin sədri **İsmayıl Qəhrəman** ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının əhəmiyyətindən danışdı. Parlament sədri bildirdi ki, Ankaranın gözəl bir guşəsində yaradılan Heydər Əliyev Parkı Türkiyə dövlətinin və xalqının ulu öndərimizə dərin ehtiramının göstəricisidir. Prezident İlham Əliyevin dövlət başçısı kimi ilk səfərini Türkiyəyə etməsi Heydər Əliyev ideallarına sədaqət nümunəsidir. Azərbaycan xalqını milli bayram - Respublika Günü münasibətilə təbrik edən İsmayıl Qəhrəman Nuru Paşanın komandanlığı ilə Azərbaycan xalqının köməyinə çatan Qafqaz İslam Ordusunun rəşadətli qələbəsini nəsillərə örnək olan qardaşlıq nümunəsi kimi dəyərləndirdi.

Türkiyə Baş nazirinin müavini **Hakan Çavuşoğlu** Baş nazir Binəli Yıldırımın mərasimə ünvanladığı təbrik məktubunu oxudu. Məktubda Azərbaycan Xalq Cümhuriyyətinin və Silahlı Qüvvələrimizin yaranmasının 100-cü ildönümü ilə bağlı səmimi təbriklər çatdırılır, Azərbaycan-Türkiyə qardaşlığının dinamik inkişafının əhəmiyyətindən bəhs olunur. Prezident seçkilərindən sonra dövlət başçısı İlham Əliyevin ilk səfərini Türkiyəyə etməsinin əhəmiyyətinə toxunulur və əminliklə ifadə olunur ki, Azərbaycanı qarşıda daha böyük nailiyyətlər gözləyir. Bundan başqa, Novruz Məmmədovu Baş nazir təyin olunması münasibətilə təbrik edən Binəli Yıldırım əminliklə ifadə edir ki, Azərbaycan və Türkiyə hökumətləri ölkələrimizin və xalqlarımızın firavan həyatı üçün daha səmərəli əməkdaşlıq edəcəklər.

Azərbaycanın Türkiyədəki səfirliyinin hərbi attaşesi, polkovnik **Müşfiq Məmmədov** Azərbaycan Silahlı Qüvvələrinin yaranması və müstəqilliyimizin bərpasından sonra ordu quruculuğu sahəsində əldə edilən nailiyyətlərdən danışdı. Hərbi attaşe bildirdi ki, Azərbaycan Silahlı Qüvvələrinin formalaşması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ordumuzun peşəkarlığının artmasına Türkiyənin göstərdiyi kömək xalqımız tərəfindən yüksək qiymətləndirilir.

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri **Necdət Ünüvar** qardaş ölkələrimizin dinamik inkişafından bəhs etdi. Deputat diqqətə çatdırdı ki, Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunun tarixi missiyası Azərbaycan və Türkiyə xalqlarının qürur mənbəyidir.

Çıxışlarda Azərbaycan-Türkiyə qardaşlıq münasibətləri xalqlarımızın böyük sərvəti kimi dəyərləndirildi. Ümummilli lider Heydər Əliyevin tarixi xilaskarlıq missiyasından bəhs edən natiqlər əminliklə bildirdilər ki, iki qardaş xalq arasındakı münasibətlər əbədiyyətə qədər dinamik inkişafda olacaq. Həmçinin çıxışlarda Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının, Milli Ordumuzun yaradılmasının əhəmiyyətindən, bu məsələdə Qafqaz İslam Ordusunun tarixi missiyasından, dövlət müstəqilliyimizin bərpasından sonra ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasının hədəflərindən, bu siyasətin uğurla davam etdirilməsindən, iki qardaş ölkənin birgə həyata keçirdikləri iqtisadi layihələrdən, o cümlədən Silahlı Qüvvələrimiz arasında əməkdaşlıq kimi məsələlərdən bəhs olunub. Diqqətə çatdırılıb ki, Silahlı Qüvvələrimizin güclənməsi, eləcə də qardaş ölkələrimizin sosial-iqtisadi həyatındakı dinamik inkişaf xalqlarımızın təhlükəsizliyini və rifahını təmin edən əsas amillərdir. Vurğulanıb ki, tarixi köklər, ortaq din, dil və mədəniyyətlə bir-birinə ayrılmaz tellərlə bağlı olan Azərbaycan və Türkiyənin qardaşlığı bundan sonra da inkişaf edəcək, bütün dünya üçün nümunə olacaqdır.

Mərasimin rəsmi hissəsindən sonra maraqlı konsert proqramı oldu.

Konsertdə xalq artisti Alim Qasımov və əməkdar artist Fərqanə Qasımova məlahətli ifaları ilə bayram tədbirinin iştirakçılarında xoş ovqat yaratdılar. Ruh oxşayan Azərbaycan muğamı Heydər Əliyev Parkında yaşanan bayram əhvali-ruhiyyəsini daha da yüksəltdi. Natiq ritm qrupunun ifası da maraqla qarşılandı.

Sonra əməkdar artist Turan Manafzadənin dirijorluğu ilə orkestrin konserti oldu. Daha sonra xalq artisti Azərinin ifası dinlənildi.

İştirakçılar Heydər Əliyev Parkında Azərbaycanın zəngin tarixi, mədəniyyəti, müasir ordusunun gücü, ölkənin sosial-iqtisadi inkişafını əks etdirən fotosərgi ilə tanış oldular.

Heydər Əliyev Parkında quraşdırılmış böyük ekranda Azərbaycanın müasir həyatından, reallaşdırılan nəhəng iqtisadi layihələrdən, o cümlədən Azərbaycan-Türkiyə qardaşlığından bəhs edən videoçarx göstərildi.

Təntənəli yubiley mərasimi atəşfəşanlıqla başa çatıb.

Bakıda Beynəlxalq Hərbi Cərrahlar Cəmiyyətinin I Konqresi keçirilir

Dünən Dövlət Sərhəd Xidmətinin təşkilatçılığı ilə Bakı şəhərində Ambruaz Pare adına Beynəlxalq Hərbi Cərrahlar Cəmiyyətinin 30-cu yubiley görüşünün və I Konqresinin açılış mərasimi keçirilib.

Açılış mərasimindən öncə konqres iştirakçıları Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin və görkəmli oftalmoloq allim, akademik Zərifə xanım Əliyevanın əziz xatirələrini hörmətlə yad edib, Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi uğrunda həlak olanların məzarlarını ziyarət ediblər.

Azərbaycan Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi Fuad Ələsgərov, Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev və digər rəsmi şəxslərin iştirak etdiyi tədbirdə Fuad Ələsgərov öncə Prezident İlham Əliyevin salamlarını konqres iştirakçılarına çatdırıb. Prezidentin hərbi məsələlər üzrə köməkçisi həmçinin ərazimizin 20 faizinin Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunması barədə məlumat verib, hazırda Ermənistanın danışıqlarda qeyri-konstruktiv mövqe göstərməsi və torpaqlarımızı hələ də işğal altında saxlaması səbəbindən sülhə nail olmağın mümkün olmamasını vurğulayıb.

Cənab Fuad Ələsgərov hərbi cərrahiyyə sahəsində beynəlxalq əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsində Beynəlxalq Hərbi Cərrahlar Forumuna uğurlar arzulayıb.

Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev ölkəmiz üçün hərbi cərrahiyyənin inkişafının əhəmiyyətini xüsusi vurğulayıb və bu istiqamətdə qarşılıqlı faydalı əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini qeyd edib.

Daha sonra Amerika Birləşmiş Ştatlarının Milli Hərbi-Tibbi Mərkəzinin cərrahiyyə departamentinin professoru Mark Bouer, Ümumdünya Cərrahiyyə Cəmiyyətinin Baş Katibi professor Kenneth Boffard, DSX Hərbi Hospitalının rəisi, Ambruaz Pare adına Beynəlxalq Hərbi Cərrahlar Forumunun prezidenti tibb xidməti polkovnik-leytenantı Kənan Yusifzadə çıxış ediblər.

21 ölkədən - Azərbaycan, Almaniya, ABŞ, Belarus, Böyük Britaniya, Cənubi Afrika Respublikası, Finlandiya, Fransa, Gürcüstan, Xorvatiya, İran, İsrail, Macarıstan, Moldova, Polşa, Rumıniya, Rusiya, Səudiyyə Ərəbistanı, Şri-Lanka, Türkiyə və Yunanıstandan 156 iştirakçının qatıldığı beynəlxalq tədbir 4 gün davam edəcək.

Konqres çərçivəsində hərbi cərrahiyyə sahəsində qabaqcıl təcrübənin mübadiləsi, tətbiq edilən innovasiyalar ilə tanışlıq, beynəlxalq tibbi təşkilatlar, nüfuzlu səhiyyə ocaqları arasında əməkdaşlığın perspektivlərinin müzakirəsi həyata keçiriləcək.

Konqresin Fəxri qonaqları sırasında olan Amerika Birləşmiş Ştatlarından professor Mark Bouer, Almaniyadan doktor Michael Engelhardt, Böyük Britaniyadan doktor Mansur Ali Khan, Cənubi Afrika Respublikasından doktor Kenneth Boffard, Rusiya Federasiyasından professor Pavel Brusov, Xorvatiyadan doktor Zvonimir Lovriç, Türkiyədən professor Çağatay Çifter beynəlxalq tədbirin moderatorları və spikerləri funksiyalarını yerinə yetirəcəklər.

Xatırladaq ki, Dövlət Sərhəd Xidmətinin Hərbi Hospitalı ilə beynəlxalq tibbi təşkilatlar, nüfuzlu səhiyyə ocaqları arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi çərçivəsində son illərdə Dünya Beynəlxalq Cərrahlar Cəmiyyəti, Ambruaz Pare adına Beynəlxalq Hərbi Cərrahlar Forumu (APIMSF) ilə sıx əlaqələr yaradılıb.

1988-ci ildə Amerika Birləşmiş Ştatlarının Çikaqo şəhərində təsis edilmiş APIMSF-nin əsas məqsədi döyüş əməliyyatları, terror hücumları, təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması zamanı cərrahiyyə əməliyyatlarını həyata keçirən dünyanın müxtəlif regionlarından olan peşəkar cərrahların təcrübə mübadiləsi üçün beynəlxalq platformanın yaradılması, araşdırmalar, görüşlər, nəşrlər vasitəsilə hərbi cərrahiyyə elminin təşviqinin həyata keçirilməsidir.

Bu müddət ərzində APIMSF-nin əhatə etdiyi ölkələrin coğrafiyası genişlənib, cəmiyyətin işində Azərbaycanın sərhədçi cərrahlarının fəal iştirakı nəticəsində 2013-cü ildə 22-ci simpozium Bakı şəhərində təşkil edilmişdir. 2015-ci ildə Tailandda keçirilmiş görüşdə DSX hərbi hospitalının rəisi, tibb elmləri doktoru, tibb xidməti polkovnik-leytenantı Kənan Yusifzadə Ambruaz Pare adına Beynəlxalq Hərbi Cərrahlar Forumunun 2017-2019-cu illər üzrə prezidenti seçilib.

"Azərbaycan"

Azərbaycan münaqişənin tezliklə həlli üçün intensiv danışıqlara hazırdır

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov mayın 15-də Parisdə ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev AZƏRTAC-a bildirib ki, görüşdə Azərbaycanda və Ermənistanda seçki prosesinin başa çatdığı nəzərə alınaraq danışıqların intensiv şəkildə davam etdirilməsinin vacibliyi qeyd olunub.

Nazir Elmar Məmmədyarov Azərbaycanın münaqişənin tezliklə həll edilməsi üçün intensiv danışıqlara hazırlığını bir daha ifadə edib.

Görüş əsnasında danışıqlar prosesinin irəlilədilməsi üçün ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən həyata keçiriləcək tədbirlər, həmçinin regiondakı vəziyyət ətraflı müzakirə olunub.

Uşaqların zərərli informasiyadan qorunması ilə bağlı yeni qanun layihəsi hazırlanıb

Mayın 15-də Milli Məclisin Ailə, qadın və uşaq komitəsinin növbəti iclası keçirildi. Gündəlikdə olan "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanun layihəsi haqqında məlumat verən komitə sədri Aqiyə Naxçıvanlı bildirdi ki, bu layihə Milli Məclisə Prezident İlham Əliyevin imzası ilə daxil olub.

Diqqətə çatdırıldı ki, yeni qanun layihəsində Azərbaycanda uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiyanın növləri müəyyənləşib. Ona görə də layihə ətrafında geniş müzakirələr, mütəmadi dinləmələr aparılıb və qanun layihəsi qüvvəyə minənə qədər tam işlək hala gətiriləcək.

5 fəsil, 19 maddədən ibarət olan sənədə əsasən, uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya məhsullarının uşaqların ola biləcəyi yerlərdə inzibati, texniki proqram və avadanlıq vasitələrinin tətbiq edilmədən yayılmasına yol verilmir. Uşaqlar arasında yayılması qadağan edilən və ya məhdudlaşdırılan informasiyanın istehsalçısı və yayıcısı bu qanunda müəyyən edilmiş qaydalara riayət etməyə borcludur.

Müzakirəyə çıxarılan qanun layihəsinin 4-cü *(Uşaqlar üçün zərərli informasiyanın növləri)* maddəsinə əsasən, uşaqlar üçün zərərli informasiyalara dövriyyəsi qadağan edilən, zorakılığı və qəddarlığı təbliğ edən, eyni zamanda, cəmiyyət əleyhinə və hüquqazidd hərəkətləri, o cümlədən cinayətləri təbliğ edən informasiyalar, uşaqların həyat və təhlükəsizliyinə potensial təhlükə yaradan əməlləri təbliğ edən informasiyalar, ailə institutunu nüfuzdan salan, əxlaqdan kənar leksik (söyüş) məzmunlu və pornoqrafik xarakterli informasiyalar, zorakılığı və qəddarlığı nümayiş edən informasiyalar və bu kimi məlumatlar daxildir.

Qanun layihəsinin 12-ci *(Uşaqlar üçün qadağan olunan informasiya məhsullarının dövriyyəsinə dair əlavə tələblər)* maddəsinə əsasən, məhdud şəxslər dairəsində yayılması nəzərdə tutulan mətbu nəşrin birinci və sonuncu səhifəsində, çap məhsulunun və digər poliqrafik məhsulun üz və arxa qabığında uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiyanın əks olunmasına yol verilmir. Əks halda, həmin informasiya məhsulunun yayılmasına yalnız bağlı qablaşdırmada yol verilir. Uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya məhsulunun uşaqlar üçün nəzərdə tutulmuş təhsil müəssisələrində, tibb, sanatoriya-kurort, bədən tərbiyəsi və idman, mədəniyyət, istirahət və sağlamlaşdırma müəssisələrində və ya həmin müəssisələrin sərhədindən 150 metrdən az olan məsafədə yayılmasına yol verilmir.

Sənəddə teleradio yayımı vasitəsilə yayımlanan informasiya məhsuluna aid tələblər də müəyyən olunub. İclasda çıxış edən komitə üzvləri qanun layihəsinin vacibliyini qeyd etdilər və səs çoxluğu ilə layihə Milli Məclisin plenar iclasına tövsiyə olundu.

Sonra iclas çərçivəsində Azərbaycanda ailə institutlarının formalaşmasından, gənclər arasında boşanma hallarının çoxluğundan və buna qarşı mübarizə metodlarından söz açıldı. Bildirildi ki, ailə münasibətlərinin tənzimlənməsində milli adət-ənənələrimizi qorumalı və yaşatmalıyıq. Bu baxımdan yeni ailə quran gənclərin üzərinə xüsusi yük düşür. O da vurğulandı kı, aidiyyəti qurumlarla birlikdə araşdırılma aparılmalı, bu sahədə olan boşluqların mənbəyi müəyyən olunmalıdır. Qeyd olundu ki, bu məsələ ilə də bağlı yeni qanun layihəsi hazırlanıb müzakirəyə təqdim olunacaq.

Elnur HADIYEV,
"Azərbaycan"

Azərbaycan nümayəndə heyəti ABŞ-da keçirilən görüşlərdə ölkəmizdəki tolerantlıq barədə məlumat verib

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlının rəhbərliyi ilə ABŞ-da səfərdə olan Azərbaycan nümayəndə heyəti Birləşmiş Ştatların Katolik Kilsəsinin rəhbərlərindən biri, ABŞ Yepiskoplar Konfransının vitse-prezidenti, Los-Anceles arxiyepiskopu Xose Horasiyo Qomezlə görüşüb. Bu barədə AZƏRTAC-a DQİDK-nın mətbuat xidmətindən məlumat verilib.

Los-Ancelesin ən böyük və müasir üslubda tikilmiş Kafedral Kilsəsində baş tutan görüşdə Mübariz Qurbanlı arxiyepiskopa Azərbaycandakı tolerant və multikultural mühitdən danışıb. O bildirib ki, tolerantlığın ölkəmizdə çox möhkəm təməl sütunları, zəngin ənənələri, dərin tarixi-mədəni kökləri mövcuddur. Fərqli dini konfessiya nümayəndələri hər zaman Azərbaycan xalqı ilə həmrəydir, bütün tarixi dövrlərdə etnik və dini icmalar arasında möhkəm dözümlülük əlaqələri olub, milli, dini, eləcə də irqi zəmində heç bir ayrı-seçkilik faktı qeydə alınmayıb. 31-i qeyri-islam olmaqla 809 dini icmanın dövlət qeydiyyatına alındığını vurğulayan M.Qurbanlı ölkəmizdə İslam dini ilə yanaşı, xristianlığa, yəhudiliyə mənsub insanların qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşadıqlarını diqqətə çatdırıb. Daha sonra dini icmaların liderləri Azərbaycandakı dini tolerantlıq və dialoq mühiti barədə arxiyepiskopla fikir mübadiləsi aparıblar.

Nümayəndə heyətinin növbəti görüşü Los-Anceles vilayətinin Nəzarətçilər Şurasının sədri Şeyla Kuehl ilə baş tutub. Şeyla Kuehl 2008-ci ildə Kaliforniyanın ştat senatoru kimi ölkəmizə səfər etdiyini və Azərbaycandan xoş təəssüratlarla ayrıldığını deyib.

Görüşdə Mübariz Qurbanlı Azərbaycanda dinə dövlət qayğısından bəhs edib. Qeyd edilib ki, dini ənənələrə və mədəniyyətə malik olan Azərbaycan bu gün dini əmin-amanlığa və sabitliyə töhfə verən örnəkdir. Bunun əsası ümummilli lider Heydər Əliyevin müdrik siyasəti sayəsində qoyulub. Azərbaycanda 2016-cı ilin "Multikulturalizm ili", 2017-ci ilin isə "İslam həmrəyliyi ili" elan edildiyini diqqətə çatdıran komitə sədri vətəndaşlarının böyük əksəriyyətini müsəlmanlar təşkil edən ölkəmizdə digər dinlərə də xüsusi diqqət göstərildiyini qeyd edib. O, Azərbaycanda 2250 məscid, 14 kilsə və 7 sinaqoqun fəaliyyət göstərdiyini söyləyib.

Nümayəndə heyəti, həmçinin Los-Ancelesdə nəşr olunan, ABŞ-ın ən böyük oxucu kütləsinə malik olan "Jewish Journal" qəzetinin prezidenti Devid Suisa ilə görüşüb. Söhbət zamanı Azərbaycanda mövcud olan multikulturalizm ənənələri, dinlərarası tolerantlıq və harmoniya haqqında ətraflı məlumat verilib. Görüşdə, eyni zamanda, ölkəmizdə dini və milli mənsubiyyətindən asılı olmayaraq hər kəsin bərabər hüquqlara malik olduğu və sülh şəraitində dinc yanaşı yaşadığı, insanların öz etiqadlarını, adət-ənənələrini sərbəst şəkildə həyata keçirdikləri və bu unikal tolerantlıq mühitinin Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti sayəsində gündən-günə daha da güclləndiyi diqqətə çatdırılıb.

Görüşlərdə iştirakçılara Azərbaycanda dini tolerantlıq mühitini, həmçinin Dağlıq Qarabağ həqiqətlərini əks etdirən kitablar təqdim olunub.

Qeyd edək ki, səfər DQİDK, Azərbaycanın Los-Anceles şəhərindəki baş konsulluğu və Amerika Yəhudi Komitəsinin birgə təşkilatçılığı ilə həyata keçirilir. Nümayəndə heyətinə Azərbaycandakı dini konfessiya təmsilçiləri - Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev, Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Mefodi Əfəndiyev, Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Avropa Yəhudiləri dini icmasının sədri Aleksandr Şarovski və onun müavini Yevgeni Brenneysen daxildir. Görüşlərdə nümayəndə heyətini Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev müşayiət edib.

İlham Əliyevin təcrid siyasəti Ermənistanın sosial-iqtisadi iflasını, dövlət böhranını daha da dərinləşdirəcək

Bütün regional layihələrdən, inteqrasiya proseslərindən kənarda qalan Ermənistan işğalçılıq siyasətindən əl çəkməyənə qədər istənilən hakimiyyət dəyişikliyi bu ölkədəki problemləri aradan qaldırmaq iqtidarında deyil

N.Paşinyanı hakimiyyətə gətirən və onu həm Ermənistanda, həm də xarici dövlətlərdə dəstəkləyən qüvvələrdə narahatlıqla qarşılanmışdır.

Lakin buna baxmayaraq onlar da hələlik gözləmə mövqeyində dayanaraq, proseslərin hansı istiqamətdə inkişaf edəcəyini diqqətlə izləməkdədirlər. Xüsusilə vurğulamaq lazımdır ki, Serj Sarkisyanın təcrübəsindən bəhrələnən Nikol Paşinyan hakimiyyətin məsul postlarına təkcə öz tərəfdarlarını, onu dəstəkləyən dövlət məmurlarını gətirməklə yanaşı, həm ölkə daxilində, həm də xarici siyasət kursunda Ermənistanın Qərb və Rusiya ilə münasibətlərindəki "balansın təmin olunması" prinsipini də gözləməyə çalışmışdır.

Etiraz mitinqlərində Nikol Paşinyanın əsas şüarları Ermənistandakı korrupsiya və "Qarabağ məsələsi" olmuşdu. Korrupsiyaya qarşı mübarizədə yeni baş nazirin sərt mövqe tutacağı isə indidən şübhə altındadır. Çünki onu dəstəkləyən siyasi-maliyyə elitası içərisində Ermənistanın nüfuzlu oliqarxları da vardır, hətta N.Paşinyan quracağı koalisiya hökumətində Ermənistanın çox imkanlı maliyyə bosslarından olan Qagik Sarukyanın fraksiyasının da təmsil olunmasına dair vədlər vermişdir. Beləliklə, Ermənistanda köhnə korrupsionerlərin yeniləri ilə əvəz edilməsi prosesinin də başlanılacağı istisna edilmir.

"Qarabağ dalanı" Paşinyana da sələflərinin perspektivini vəd edir

Siyasi gündəmdə olan digər məsələ yeni baş nazirin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə münasibətidir. May ayının 8-də işğal altında olan ərazilərə səfər edən N.Paşinyan Azərbaycanla danışıqlar məsasında əyləşməyə hazır olduğunu bildirsə də, rəsmi Bakı ilə müzakirələrdə R.Köçəryan və S.Sarkisyan ritorikasını və onların əvvəlki şərtlərini qüvvədə saxlamışdır. Azərbaycan üçün məqbul olmayan həmin şərtlərə görə danışıqların formatı dəyişdirilməli, Dağlıq Qarabağın separatçı rejimi danışıqlar prosesində tərəf kimi iştirak etməli, Azərbaycan "Qarabağ ermənilərinin öz müqəddəratını təyin etmək hüququnu" tanımalıdır. Bütün bunlar isə münaqişənin dondurulmasına, əvvəlki status-kvonun saxlanılmasına xidmət edir.

Lakin problemlər məngənəsində qalan Ermənistan əhalisi populist vədlərlə hakimiyyətə yiyələnmiş baş nazirdən yeni vədlər deyil, konkret və təsirli fəaliyyət gözləyir. Nikol Paşinyan isə aydın dərk edir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tezliklə öz həllini tapmazsa, onun verdiyi siyasi, iqtisadi, sosial vədlərin heç biri həyata keçə bilməyəcək. Əksinə, Ermənistan Serj Sarkisyan hakimiyyəti dövrü ilə müqayisədə daha ağır böhranla üzləşəcəkdir. Bu zaman isə Nikol Paşinyanı əvvəlki sələfinin biabırçı aqibəti gözləyəcəkdir.

Dünya ictimaiyyəti üçün Ermənistanın yeni hakimiyyəti maraq, ekzotika kəsb edə və bu maraqdan müəyyən eyforiya, növbəti illüziyalar yarana bilər. Lakin təxirəsalınmaz addımlar atılmazsa, erməni cəmiyyətində ümidləri kəskin tənqidlər və növbəti kütləvi etiraz dalğası əvəz edəcəkdir. Nəticədə, regionun reallıqları Ermənistanın bu hakimiyyətini də tez bir zamanda çıxılmaz vəziyyətə salacaqdır. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, *"Bizim iştirakımız olmadan bölgədə heç bir layihə icra edilə bilməz. Ermənistanda bu reallığı nə qədər tez başa düşsələr, münaqişə o qədər də tez həll edilər və bölgəmizdə sülh təmin olunar"*.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin (SAM) fəaliyyət istiqamətlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Azərbaycanın haqlı mövqeyinin dünya ekspert ictimaiyyətinə çatdırılması, Ermənistanın daxili və xarici siyasətinin təhlil edilməsi əsas prioritetlərdəndir. Azərbaycan Respublikası Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi tərəfindən kurasiya edilən SAM öz tədqiqatlarında son iki ay ərzində işğalçı Ermənistanda cərəyan edən siyasi prosesləri geniş araşdırmış, bu ölkədə ağır iqtisadi vəziyyətdən qaynaqlanan siyasi böhranın ilkin dövrdəki nəticələrini öyrənmiş və perspektiv durumu barədə proqnozlarını vermişdir.

Tam əsasla demək olar ki, Prezident İlham Əliyevin təcrid siyasəti Ermənistanı sosial-iqtisadi iflasdan, habelə dövlət böhranından xilasına imkan verməyəcək və bu ölkədəki problemlər daha da dərinləşəcəkdir. Bu isə yeni siyasi xaosu şərtləndirəcək.

Fərhad MƏMMƏDOV,
Azərbaycan Respublikası Prezidentinin yanında Strateji Araşdırmalar Mərkəzinin direktoru

Əvvəli 1-ci səh.

Populizm və fantastik vədlər yenidən siyasi dövriyyədə

"Xalqın seçdiyi" yeni baş nazir indi yaxşı dərk edir ki, həm Serj Sarkisyan, həm də əvvəlki dövlət başçıları ona ağır miras - həlli mümkün olmayan problemlər qoymuşlar: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi rəsmi Yerevanın gözləntilərinin əksinə olaraq, həllini tapmamış, Ermənistanın iqtisadi izolyasiyası daha kəskin xarakter almış, ölkə bütün regional layihələrdən kənarda qalmış, sosial-iqtisadi böhran dərinləşmiş, əhalinin miqrasiyası kütləviləşmişdir. **Erməni statistiklərinin məlumatına görə, hər il təqribən 40 min nəfər işsizlik, yoxsulluq üzündən ölkəni tərk edir və bu axın getdikcə artmaqdadır. Hazırda Ermənistanın xarici borcları astronomik həddə - 5,1 milyard ABŞ dollarına çatmaqdadır. Bu isə ümumi daxili məhsulun 58,8 faizinə bərabərdir. Ümumiyyətlə, xarici borclar son 10 ildə 3,5 dəfə artmışdır.**

Levon Ter-Petrosyandan, Robert Köçəryandan və Serj Sarkisyandan sonra mitinq əhval-ruhiyyəsindən nisbətən ayılan və "xalq tərəfindən seçilən" yeni baş nazir onu da aydın dərk edir ki, ölkəsinin üzləşdiyi bütün siyasi, sosial və iqtisadi problemlərin arxasında yalnız bir məsələ - Ermənistanın işğalçılıq siyasəti, Azərbaycana və Türkiyəyə ərazi iddiaları və bu dövlətlərin qətiyyətli mövqeləri dayanır. Belə ki, əgər N.Paşinyanın hakimiyyətdə olduğu dövrdə də münaqişə nizamlanmazsa, Ermənistanın öz qonşuları ilə münasibəti normal xarakter almazsa, bu zaman o, siyasətçi imicinin atributlarından birinə çevrilmiş aşırma çantasını yenidən kürəyinə atıb təkcə baş nazir kürsüsünü deyil, ümumiyyətlə, Ermənistanı tərk etməli olacaqdır. Çünki sələfləri ilə müqayisədə özünə həm daxildə, həm də xaricdə xeyli rəqib və düşmən qazana bilmişdir.

Hələlik isə aşırma çantasını və beysbol papağını kabinetinin bir küncündə ehtiyat üçün saxlayan Nikol Paşinyan Ermənistanın məhdud siyasi və iqtisadi imkanlarını regionun ən güclü dövləti olan Azərbaycanla müqayisə etməyə, əhali üçün yeni siyasi və iqtisadi illüziyalar yaratmağa səylər göstərir. Bu gün hətta Ermənistan ekspertləri populist baş nazirin ritorikasının və fantastik vədlərinin erməni xalqının gələcək taleyi üçün olduqca təhlükəli olduğunu və kütlələrin yenidən küçə və meydanlara axışması, növbəti siyasi qarşıdurmalara zəmin yaradılmasını bildirirlər. Bu fərqi isə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev bir daha diqqətə çatdırmışdır: *"Son 15 il ərzində Azərbaycan Heydər Əliyevin qoyduğu yolla uğurla, inamla gedir. Azərbaycanda sabitlik tam təmin olunur, sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Biz indi görürük ki, dünyanın müxtəlif yerlərində vəziyyət gərginləşir, yeni münaqişələr, qanlı toqquşmalar, vətəndaş müharibələri, çevrilişlər baş verir. Ona görə baş verir ki, insanlar hakimiyyətdən narazıdırlar. Ona görə baş verir ki, hakimiyyət lazım olan səviyyədə, düzgün siyasət aparmır, insanları narahat edən problemləri həll etmir, iqtisadi inkişafı təmin edə bilmir, böyük pozuntulara yol verir. Azərbaycanda isə sabitliyin təminatçısı, onun qarantı Azərbaycan xalqıdır və xalq-iqtidar birliyidir. Bu gün Azərbaycan dünya miqyasında ən sabit və ən uğurla inkişaf edən ölkələrdən biridir"*.

Odur ki, N.Paşinyanın həm Ermənistan parlamentində, həm də erməni işğalı altında olan Şuşa şəhərində səsləndirdiyi "strateji yol xəritəsindəki" prinsiplər əhəmiyyətinə görə aşağıdakı ardıcıllıqla gəlir. *Birincisi*, "Dağlıq Qarabağ məsələsində Azərbaycanı "sülhə məcbur etmək" və qondarma separatçı rejimin müstəqilliyini tanımaq. *İkincisi*, Türkiyə-Ermənistan sərhədlərinin qeyd-şərtsiz açılmasına nail olmaq. Bütün bunlardan sonra isə Ermənistanın inkişafı üçün yarana biləcək əlverişli imkanlar hesabına sosial-iqtisadi sahədə uğurlar qazanmaq.

İlham Əliyevin qətiyyəti, Paşinyanın çaşqınlığı…

Beləliklə, Ermənistanın üzləşdiyi taleyüklü problemlər məhz bu dövlətin işğalçılıq siyasətini davam etdirməsindən qaynaqlanır. Bu problemlərin yaranması, getdikcə dərinləşməsi və gündəmdə qalması isə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin ardıcıl olaraq həyata keçirtdiyi təcrid, sülhə məcburetmə siyasətinin nəticəsidir. Bütün regional layihələrdən, inteqrasiya proseslərindən kənarda qalan Ermənistan özünün işğalçılıq siyasətindən əl çəkməyənə qədər istənilən hakimiyyət dəyişikliyi bu ölkədə dərin kök salmış problemləri aradan qaldırmaq iqtidarında deyildir!

Azərbaycan Prezidenti İlham Əliyev dövlətimizin bu qətiyyətli mövqeyini dəfələrlə səsləndirmiş, onu reallığa çevirmişdir. Azərbaycan dövlətinin başçısı ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yübileyinə həsr olunmuş təntənəli mərasimdə çıxış edərkən bir daha vurğulamışdır: *"Azərbaycan xalqı və dövləti heç vaxt imkan verməz ki, Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Əgər kimsə başqa cür fikirləşirsə, hesab edirəm ki, o, əbəs yerə illüziyalarla yaşayır"*.

Görünən tərəf isə odur ki, əsas məqsədi rusiyameyilli "Qarabağ klanının" hakimiyyətdən uzaqlaşdırılması olan və mitinqlərdə bunu açıq şəkildə bildirən Nikol Paşinyan əslində, həm Robert Köçəryanın, həm də Serj Sarkisyanın siyasi xəttini və onların səhvlərini davam etdirməkdədir. Təsadüfi deyil ki, N.Paşinyan neosedakronçu Serj Sarkisyanın Türkiyə və Azərbaycana münasibətinə dair siyasi ənənəsinə sadiq qaldığını kütləyə göstərmək üçün etiraz mitinqlərinə alman faşizmini dəstəkləyən Qaragen Njdenin adını daşıyan Yerevandakı meydandan start vermiş, "Qarabağ məsələsinin", qondarma "erməni soyqırımının" tanınmasının Ermənistan üçün taleyüklu məsələ olduğunu bəyan etmişdir. Mitinqlər zamanı onun maniakal düşüncəsini özündə əks etdirən çıxışlarına əsasən, erməni xalqı bu istəyə nail olmaq üçün ilk növbədə, Serj Sarkisyan klanını "demokratik hakimiyyətlə" əvəz etməli, Ermənistan Rusiyanın "alçaldıcı nüfuz dairəsindən" çıxarılmalı, siyasi, iqtisadi və mədəni sahələrdə Qərbə sıx inteqrasiya əldə olunmalıdır. Xatırladaq ki, Qərbyönümlü N.Paşinyanın və onun çoxsaylı tərəfdarlarının Rusiya-Ermənistan münasibətlərinin indiki səviyyəsini həmişə mənfi dəyərləndirmişlər. Hətta vaxtilə "Yelk" fraksiyası Ermənistanın Avrasiya İqtisadi İttifaqından çıxması haqqında qanun layihəsi hazırlayaraq parlamentə təqdim etmişdir.

Yeni yol - köhnə yolun imitasiyası

Lakin reallıqlarla üzləşdikdən sonra Paşinyanın antirusiya ritorikasındakı aqressivlik nəzərəçarpacaq dərəcədə azalmış və hazırda göründüyü kimi, Ermənistanın Avrasiya İqtisadi İttifaqında qalıb-qalmamasını rəsmi Moskva ilə siyasi bazarlıq mövzusuna çevirməyi qərara almışdır. Təsadüfi deyil ki, N.Paşinyan Soçi şəhərində Rusiya Prezidenti Vladimir Putin ilə görüşdən əvvəlki radikalizmindən fərqli yanaşma ilə gəlmişdir. Hətta baş nazir seçilməsindən sonra çıxışlarında əvvəlki mövqeyini kəskin şəkildə dəyişərək Ermənistanın xarici siyasət oriyentasiyasının sabit qalacağını, Rusiya ilə müttəfiqlik münasibətlərinin qorunmasının və inkişafının Ermənistanın prioriteti olduğunu vurğulamış, ölkəsinin Avrasiya İqtisadi İttifaqı və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə əlaqələrin bundan sonra daha da dərinləşdirilməsinin əhəmiyyətini diqqətə çatdırmışdır.

Faktiki olaraq, son iki ay ərzində Ermənistanda cərəyan edən hadisələr əslinə qalsa, fövqəldövlətlərin Cənubi Qafqaz regionunda geosiyasi maraq mübarizəsinin məntiqi nəticəsi kimi dəyərləndirilməlidir. "Qarabağ klanı"nın təqribən iyirmi illik rusiyapərəst siyasi elitasının öz mövqelərini sürətlə itirməsi Qərbdə gözlənilən ruh yüksəkliyi ilə qarşılanmasına və orada bu proseslərin "demokratiyanın təntənəsi" kimi təqdim olunmasına baxmayaraq, Ermənistan-Rusiya münasibətlərində indiyədək mövcud olmuş status-kvo dəyişilməz qalmışdır. Bu isə

Azərbaycan Avrasiyanın ən səmərəli logistika mərkəzinə çevrilir

Əvvəli 1-ci səh.

Cənab İlham Əliyevin qlobal miqyaslı təşəbbüsləri Azərbaycanın siyasi və strateji əhəmiyyətini artırır. Bu baxımdan, dövlət başçısının respublikamızın regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsi strategiyasının tərkib hissəsi olan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici rola malikdir.

12 yanalma körpüsü, yükaşırma imkanı illik 15 milyon ton

Liman kompleksinin tikintisinə Prezident İlham Əliyevin 2007-ci ildə imzaladığı sərəncamla başlanılıb. 2010-cu ilin noyabrında dövlət başçısının iştirakı ilə yeni liman kompleksinin təməli qoyulub. 2014-cü ilin sentyabrında liman qurğularından biri - iki körpüdən ibarət bərə terminalı, bu ilin yanvarında isə iki körpüdən ibarət olan Ro-Ro terminalı istifadəyə verilib.

Liman 117 hektar ərazini əhatə edir və 12 yanalma körpüsünə malikdir. Limanın yükaşırma imkanı illik 15 milyon ton yük, o cümlədən 100 min konteyner təşkil edir. Körpülərin ümumi uzunluğu 2100 metrə yaxındır. Müasir dövrün ən son mühəndislik yeniliklərindən olan dəmir-beton konstruksiyalı istinad divarının uzunluğu isə 1777 metr təşkil edir. Limanda Ro-Ro tipli gəmilər üçün iki körpü, yeddi körpüdən ibarət universal quru yük və konteyner terminalı, iki bərə körpüsü, həmçinin xidməti donanma gəmiləri üçün bir körpü inşa edilib. İkinci Ro-Ro körpüsü və bərə körpüləri hidravlik sistemli asqılı pandusla təchiz edilib ki, bu da suyun səviyyəsinin müəyyən hədlərdə enib-qalxmasından asılı olmayaraq gəmilərin körpüyə təhlükəsiz yan almasını təmin edir.

Körpüyə eyni vaxtda 11 gəmi yan ala bilir

Limanda xidməti donanma gəmiləri üçün körpünün uzunluğu 155 metr təşkil edir və bura eyni zamanda 11 gəmi yan ala bilər. Ərazidə ümumi sayı 2502 olmaqla, uzunluğu 45 kilometr, orta dərinliyi 26 metr təşkil edən müxtəlif diametrli svay işləri aparılıb. Limanın yerüstü infrastrukturu bu svaylar üzərində qurulub. Kompleksin qərb istiqamətində olan sahil xəttinin yuyulmasının qarşısının alınması məqsədilə 1077 metr uzunluğunda xüsusi struktura malik müdafiə divarı inşa edilib.

Liman akvatoriyasında dibdərinləşdirmə işləri aparılıb, uzunluğu 7,5 kilometr, dönmə dairəsinin diametri 450 metr olan giriş kanalı inşa olunub. Bu kanal və dönmə akvatoriyası Xəzər dənizində üzən bütün növ gəmilərin limana təhlükəsiz və sərbəst yanalmasını təmin etmək imkanı verir. Hazırda limana çəkisi 7000-8000 tona qədər olan gəmilər daxil olur ki, mövcud dərinlik bunun üçün kifayət edir. Layihələndirmə zamanı liman akvatoriyasında dərinliyin artırılma imkanı da nəzərə alınıb ki, bu da gələcəkdə daha böyük gəmilərin də sərbəst yanalmasını təmin edəcək.

Kompleksdə 72 müxtəlif təyinatlı bina və qurğular inşa olunub

Kompleksdə yükləmə-boşaltma əməliyyatlarının səmərəliliyinin yüksəldilməsi məqsədilə Almaniya istehsalı olan 80, 40 və 32 tonluq 6 yeni portal kran quraşdırılıb, 2 mövcud portal kranın isə modernləşdirilərək quraşdırılması işləri davam edir.

Layihə çərçivəsində limanın əməliyyat binası, yük sahələri və anbarlar, sərhəd və gömrük xidməti məntəqələri, bütövlükdə 72 müxtəlif təyinatlı bina və qurğular inşa olunub, sərnişinlər üçün beynəlxalq terminalın layihələndirilməsi davam etdirilir. Burada qapalı və açıq anbarlar yaradılıb. Konteyner meydançasında eyni zamanda 1040 konteynerin yerləşdirilməsi, 64 soyuducu konteynerə xidmət göstərilməsi üçün xüsusi infrastruktur yaradılıb.

1 idxal, 2 ixrac sahəsindən ibarət zonalar yaradılıb

Burada əməliyyatların səmərəli idarə olunmasını təmin edəcək Liman İdarəetmə və İnformasiya Sistemi və digər İT komponentləri tətbiq olunub, eləcə də Gəmilərin və Liman Vasitələrinin Mühafizəsi üzrə Beynəlxalq Kodeksin tələblərinə uyğun mühafizə sistemi qurulub, müasir kameralar quraşdırılıb, sərhəd və gömrük nəzarəti zonalarının ayrılması məqsədilə 1 idxal və 2 ixrac sahəsindən ibarət zonalar yaradılıb.

Yüklərin sürətli və səmərəli yüklənib-boşaldılması üçün Liman Əməliyyat İnformasiya Sistemi vasitəsilə əraziyə daxil olan bütün yüklərin - konteyner, TIR vasitəsilə gətirilən quru yüklərin gəmilərə yüklənmə və boşalma vaxtı müəyyən edilir və proseslər həmin qrafikə uyğun həyata keçirilir. İnternet üzərindən işləyən bu əməliyyat sistemi yük sahibinə yükün Bakı limanına daxil olması və limandan çıxması barədə dərhal məlumat verir. Tətbiq edilən ən son müasir texnoloji və mühəndis həlləri kompleksi regionda beynəlxalq tələblərə cavab verən ən müasir və rahat yükaşırma mərkəzinə çevirir, mühüm nəqliyyat qovşağı kimi onun tranzit və daşıma imkanlarını artırır.

"Yaşıl liman" konsepsiyasının tələbləri də yerinə yetirilib

"Yaşıl liman" konsepsiyasının tələblərinə uyğun olaraq kompleksin inşası zamanı ən yüksək ekoloji tələblər nəzərə alınıb, çirkab suların təmizlənməsi üçün 3 müxtəlif qurğu inşa edilib. Limanın elektrik enerjisi ilə təminatı Ələt elektrik yarımstansiyasından və Səngəçal modul elektrik stansiyasından olmaqla iki mənbədən yerinə yetirilir. Layihənin ümumi elektrik gücü 18 meqavat təşkil edir. Bununla yanaşı, limanın fasiləsiz elektrik enerjisi ilə təminatı üçün iki generatordan ibarət dizel generator stansiyası qurulub. İçməli su təchizatının təmin edilməsi məqsədilə ərazidə su rezervuarı inşa edilib.

Nəqliyyat potensialımızın inkişafında önəmli yer tutacaq kompleks

Açılış mərasimində Bakı limanının ölkəmizin nəqliyyat potensialının möhkəmləndirilməsində önəmli rol oynayacağını deyən Prezident İlham Əliyev bildirdi ki, bundan sonrakı mərhələ yükaşırma qabiliyyətini 25 milyon tona çatdırmağa hesablanıb və Azərbaycan artıq çox güclü nəqliyyat-logistika mərkəzi yaradır.

Limanın tikintisi ilə bağlı işlərə şəxsən nəzarət etdiyini deyən Prezident limanın yaradılmasında Ələt qəsəbəsinin seçilməsinin səbəblərinə də aydınlıq gətirdi. Qeyd etdi ki, Ələtin seçilməsi heç də təsadüfi deyildi: "Çünki mövcud Bakı Dəniz Limanı bizim tələbatımıza artıq uyğun deyil, şəhərin mərkəzində yerləşir və artan yükləri qəbul etmək imkanları çox məhduddur. Ələt isə coğrafi baxımdan çox əlverişli bir yerdir və həm Qərb, həm Cənub istiqamətinə buradan açılan yollar, o cümlədən avtomobil, dəmir yolları əlbəttə ki, bu yerin seçilməsində əsas rol oynamışdır. Əlbəttə ki, Ələt qəsəbəsinin də inkişafı böyük dərəcədə burada yaradılan logistika və nəqliyyat infrastrukturu ilə bağlı olacaq. Əlavə etsək ki, biz yaxın gələcəkdə Ələt Azad İqtisadi Zonasının yaradılmasına başlayacağıq, deməyə tam əsas var ki, Bakı şəhərinin bu ərazisi gələcəkdə çox sürətlə inkişaf edəcək, çoxsaylı iş yerləri yaradılacaq. Beləliklə, Ələt ölkəmizin iqtisadi nəqliyyat potensialının inkişafında əlbəttə ki, önəmli yer tutacaqdır".

Xəzərdə 260 gəmidən ibarət böyük donanma

Dövlət başçısının söylədiyi kimi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi deməyə əsas verir ki, Azərbaycan nəqliyyat infrastrukturu ilə bağlı qarşıda duran bütün vəzifələri icra edib. Bu günə qədər bu istiqamətdə çox böyük işlər görülüb.

Hazırda Xəzərdə Azərbaycanın 260 gəmidən ibarət ən böyük donanmasının olduğunu vurğulayan cənab İlham Əliyev son bir neçə il ərzində əlavə olaraq 18 gəminin alındığını söylədi: "Mənim təşəbbüsümlə Bakıda gəmiqayırma zavodu tikilmişdir. Biz bütün növ gəmiləri istehsal edə bilərik, istehsal edirik və beləliklə, xarici tərəfdaşlardan asılılığı aradan qaldırmışıq".

Bakı Avropaya dəmir yolu xətti ilə birləşib

Bu gün Azərbaycan həm də dəmir yolu infrastrukturunu müasirləşdirir. Mövcud dəmir yolu xətləri təzələnir, yeni dəmir yolu xətləri çəkilir.

Prezident İlham Əliyev qeyd etdi ki, ötən il istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu ilə Azərbaycan Bakını Avropaya dəmir yolu xətti ilə birləşdirib: "Əslində, Asiyanı Avropa ilə birləşdirən Azərbaycan olmuşdur. Bu nəqliyyat dəhlizi uzun illər bundan sonra bizə böyük gəlirlər gətirəcək, xalqımıza böyük fayda verəcəkdir. Bakı-Tbilisi-Qars dəmir yolu tarixi layihədir. Bu layihənin uğurla icra edilməsi nəticəsində Azərbaycan bu bölgədə öz mövqeyini daha da gücləndirəcəkdir".

Şimaldan Cənuba, Şərqdən Qərbə gedən yollar Azərbaycandan keçəcək

Cənab İlham Əliyev vurğuladı ki, Azərbaycan hazırda Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması ilə məşğuldur. Bu layihələrin işə düşməsi ilə həm Şimaldan Cənuba, həm Şərqdən Qərbə gedən yollar Azərbaycan ərazisindən keçəcək:

"Şimal-Cənub nəqliyyat dəhlizinin tam başa çatması üçün biz əlavə vəsait ayırdıq və əminəm ki, yaxın bir neçə il ərzində bu dəmir yolu tam istifadəyə veriləcəkdir. Beləliklə, Avrasiya məkanında açıq dənizlərə çıxışı olmayan Azərbaycan nəqliyyat və logistika mərkəzinə çevriləcək. Artıq biz bunu görürük və biz bu funksiyanı artıq yerinə yetiririk".

Dövlət başçısı bu layihələrin həyata keçirilməsinin təkcə Azərbaycana iqtisadi mənfəət gətirməyəcəyini qeyd edərək diqqətə çatdırdı ki, ölkəmiz nəqliyyat potensialından çox böyük səmərə ilə istifadə edərək, öz iqtisadi vəziyyətini daha da yaxşılaşdıracaq. Çünki bu layihələr Azərbaycanın geosiyasi önəmini böyük dərəcədə artıracaq. Azərbaycan Avrasiya məkanında regional əməkdaşlıq üçün əvəzolunmaz ölkə kimi öz fəaliyyətini davam etdirəcək: "Onsuz da dünyada bizə böyük hörmət, rəğbət var. Azərbaycan çox etibarlı tərəfdaş, çox qabiliyyətli ölkə kimi tanınır. Bizim artan iqtisadi gücümüz imkan verir ki, belə tarixi layihələri icra edək. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi Azərbaycanın dövlət büdcəsi hesabına həyata keçirilən önəmli layihələrdən biridir və bu gün bizim tariximizdə yaddaqalan və önəmli gün kimi qalacaqdır".

Dəniz nəqliyyatı innovativ inkişaf mərhələsinə qədəm qoyur

Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin tranzit potensialının artırılması, beynəlxalq daşımaları təmin edən müasir infrastrukturun yaradılması və nəqliyyat parkının yeniləşdirilməsi üzrə işlər daha intensiv xarakter alıb. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının inşası kimi mühüm əhəmiyyət kəsb edən layihələrin icrası Azərbaycanın iqtisadi qüdrətini artırmaqla yanaşı, beynəlxalq mövqelərini də möhkəmləndirir.

Beləliklə, Avrasiya məkanında önəmli geostrateji mövqeyə, çoxşaxəli iqtisadi və ticarət əlaqələrinə malik Azərbaycan bu gün dəniz nəqliyyatının innovativ inkişaf mərhələsinə qədəm qoyur.

Rəşad BAXŞƏLİYEV,
"Azərbaycan"

Masallıda yaz-tarla işlərinə uğurla başlanılıb

İndi rayonda 18 min hektar sahə əkilib-becərilir ki, bu da sovetlər dövründəkindən xeyli çoxdur

Masallı Azərbaycanın qədim yaşayış məskənlərindəndir. Ərazisi 721 kvadratkilometr, əhalisi 224 min nəfərdir. Rayonda bir kvadratkilometrə 285 nəfər düşür ki, bu da dünya əhalisinin sıxlığından 7 dəfə çoxdur. Rayon Bakı-Astara magistral şose yolunun 232-ci kilometrliyində yerləşir. Lənkəran, Lerik, Yardımlı, Cəlilabad və Neftçala rayonları ilə həmsərhəddir. Ərazisində 168 qədim abidə mövcuddur. Onlardan bir neçəsi orta əsrlərə aiddir.

Masallının təbiəti zəngindir. Şərqdən Xəzər dənizi, Qərbdən dağlarla əhatə olunmuşdur. Rayon ərazisindən axıb Xəzərə tökülən Viləş, Alvadıçay və Tatyan çayları öz mənbələrini Lerik və Yardımlı dağlarından götürür. Viləşçay su dəryaçası 1976-cı ildə ulu öndər Heydər Əliyevin göstərişi ilə yaradılmışdır. Nəhəng su anbarı Masallının, eləcə də Cəlilabad rayonunun yaşayış məntəqələrini içməli su ilə təmin edir.

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində dəryaçada çox böyük genişləndirmə işləri aparılmışdır. Burada çoxlu sayda bulaqlar da var. Təkcə Ərkivan kəndi ərazisində 37 bulaq mövcuddur ki, onların da hər birinin öz adı, öz tarixi var. Ərkivana el arasında "Dünya bulaqları muzeyi" də deyirlər. Bu mənada Masallı yeraltı və yerüstü sərvətlərlə zəngin olan bir diyardır. Min bir dərdin dərmanı sayılan "İsti su" müalicə ocağında yel, oynaq, əzələ, əsəb, dəri, mədə-bağırsaq xəstəlikləri müalicə olunur. 1929-cu ildə yaradılan məşhur Qızılağac qoruğunun böyük bir hissəsi də Masallı ərazisində yerləşir. Burada 248 növ quş, 54 növ balıq qorunur.

Masallının rəngarəng gözəlliyi, zəngin tarixi, adət-ənənələri, xalq sənətkarlığı nümunələri turizmin inkişafı üçün geniş imkanlar yaradır. Bu gün rayonda 15-dən çox turizm-istirahət mərkəzi fəaliyyət göstərir. Onlar gün ərzində 1000-dən çox turist qəbul etmək imkanına malikdir.

Son illər Masallıda bir neçə beynəlxalq folklor festivalı keçirilmişdir. Bu da rayonda folklorun, qədim adət-ənənələrin, xalq sənətkarlığının yaşadılması, onlara xüsusi diqqət və qayğının göstərilməsi ilə bağlıdır. Keçən əsrin ortalarında yaradılan "Halay" folklor qrupu dünyanın müxtəlif ölkələrində keçirilən folklor festivallarında uğurla çıxış edərək yüksək mükafatlar almışdır. Yaranan adət-ənənəni qorumaq, inkişaf etdirmək üçün 2012-ci ilin payızında rayon icra hakimiyyətinin təşkilatçılığı ilə burada beynəlxalq folklor festivalı keçirilmişdir. Tədbirdə Masallının "Halay", Naxçıvanın "Şərur" kollektivləri, habelə Türkiyə, İran, Latviya, Dağıstan və Kabarda-Balkar respublikalarının folklor qruplarının çıxışları böyük rəğbətlə qarşılanmışdır. Festival növbəti bir neçə ildə də davam etmişdir.

Deyirlər, təbiətlə cəmiyyət əkizdir. Birini o birindən ayrı təsəvvür etmək mümkün deyil. Düzdür, ilkin təbiətdir, insan və cəmiyyət onun övladıdır. Ancaq insan olmasaydı, təbiət də kimsəsiz, tənha qalardı. Onun gözəlliklərini qiymətləndirən, nazını çəkən insandır. İnsan isə yaranışından həm təbiətdən bəhrələnib, həm də zəhməti, biliyi, bacarığı ilə onun qoynunda xariqələr yaradıb. Torpağı əkib-becərib, özünün yaşam tərzini təmin edib. Yeri gələndə təbiətin gözəlliyini, səxavətini vəsf edib. Deyirlər, insanlar öz ata-analarına və öz zəmanələrinə oxşadıqları kimi, müəyyən qədər də yaşadıqları əraziyə bənzəyirlər. Bu cəhətdən Masallı da istisna deyil. Qədim diyardan vətəni sevən, ona qəlbən bağlı olan zəhmətkeş insanlar, alimlər, ziyalılar, hərbçilər çıxmışlar. Təkcə XX əsrdə Masallıda 230 nəfərdən çox elmlər doktoru, elmlər namizədi, 100-ə yaxın yazıçı və şair, 6 general yetişmişdir.

Masallı ölkəmizdə gedən ictimai-siyasi proseslərdə həmişə ön cərgələrdə olmuşdur. Ulu öndər Heydər Əliyev istər sovetlər dönəmində, istərsə də müstəqillik illərində dəfələrlə burada olmuş, rayonun inkişafı üçün lazımi qərarlar vermişdir. Sovet dövründə Masallı respublika əhalisinin tərəvəz məhsulları ilə təmin edilməsində yaxından iştirak etmişdir. Eyni zamanda burada yetişdirilən nemətlər Rusiya Federasiyasının müxtəlif şəhərlərinə göndərilmişdir.

Lakin SSRİ-nin süquta uğraması nəticəsində Rusiya ilə iqtisadi əlaqələr, demək olar ki, tamamilə kəsildi. Kolxoz və sovxozlar ləğv edildi. Əkin sahələri, çay plantasiyaları, sitrus meyvə bağları sahibsiz qaldı. Adamlar çay plantasiyalarındakı çoxillik bitkilərə biganə yanaşdılar, onları mal-qara üçün otlaq sahəsinə çevirdilər. İllərlə damla-damla, kərpic-kərpic yaradılan, tikilib-qurulanlar dağıdılaraq məhv edildi. Nə yaxşı ki, ümummilli lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdı və vəziyyəti düzəltmək, ölkəni xaosdan, hərc-mərclik bataqlığından çıxarmaq üçün yorulmaq bilmədən çalışdı. "Əsrin müqaviləsi"ni imzaladı, çoxlu sayda islahatlar apardı.

Lakin torpaqların kəndlilərə verilməsinə baxmayaraq, ilk vaxtlar maddi çətinlik ucbatından, texnikanın olmaması səbəbindən onu əkib-becərmək çətin idi. 2004-cü il fevral ayının 11-də Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar imzaladığı ilk Dövlət Proqramı Masallı rayonunun həyatında da mühüm rol oynadı. Proqram çərçivəsində başlanan tikinti-quruculuq və abadlıq işləri 2009-2013-cü illər üçün qəbul edilən növbəti Dövlət Proqramı ilə davam etdi. Həyata keçirilən hər bir iş, tədbir Masallının görkəminə sığal çəkdi. Yeni tikilən və əsaslı təmir olunan binalar, salınan parklar, bağlar, xiyabanlar, asfaltlaşdırılan küçə və prospektlər bu qədim diyarın simasını büsbütün dəyişdi. Rayon əhalisi fasiləsiz elektrik enerjisi ilə təmin olundu, ən ucqar kəndlərə belə, təbii qaz xətti çəkildi. Sahibkarlara yaradılmış şərait nəticəsində yeni turizm obyektləri, istehsal müəssisələri fəaliyyətə başladı. Onlarca təhsil, səhiyyə, mədəniyyət ocağı, digər sosial əhəmiyyətli obyektlər inşa edildi. Masallı şəhəri üçün uzun illərdən bəri arzu olunan problem həll olundu - şəhərdə su-kanalizasiya sistemi quruldu. Bu gün isə çoxlu sayda adamın iş yeri Masallı olacaq. Sənaye məhəlləsində işlər başa çatmışdır. Mühüm əhəmiyyətli bu tikililərin çoxunun təməlqoyma, açılış mərasimlərimdə Prezident İlham Əliyev iştirak etmişdir. Ümumilikdə İlham Əliyev 15 ildə Masallıya 9 dəfə səfər etmişdir.

Nəinki hər dövrün, hətta hər ilin, ayın, günün öz tələbi var. Dünya bazarında neftin qiymətinin birdən-birə kəskin aşağı düşməsi ölkə iqtisadiyyatı qarşısında yeni tələblər qoydu. Çevik iqtisadi siyasət yeridən ölkə rəhbəri ehtiyatda olan rıçaqları işə salmaqla kənd təsərrüfatını daha da inkişaf etdirmək və bu yolla idxaldan azad olmaq, daxili imkanlar hesabına əhalini keyfiyyətli yerli məhsullarla təmin etmək, bu sahədə ixracyönümlü məhsullar istehsal etməklə ölkəmizə valyuta daxilolmalarını çoxaltmaq, yeni iş yerləri yaratmaq və digər bu kimi vəzifələr qarşıya qoydu. Onların icrası ilə əlaqədar əsaslı islahatlar həyata keçirildi. Pambıqçılığın, baramaçılığın, çəltikçiliyin, çaycılığın, sitrus meyvəçiliyinin, fındıqçılığın, tütünçülüyün daha da inkişaf etdirilməsi ilə bağlı mühüm sərəncamlar imzalandı və Prezident ayrı-ayrı rayonlarda müşavirələr keçirdi. Aqrar sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi, yüksək məhsuldarlıqlı toxum və tinglərin, heyvanların, maşın və texnikanın, mexanizmlərin respublikaya gətirilməsi və onların lizinq yolu ilə sahibkarlara verilməsi sistemli şəkil aldı. Kənd təsərrüfatı məhsullarının qiymətinin artırılması, dövlət tərəfindən subsidiyaların, güzəştli qaydalarla mineral gübrələrin verilməsi fermerlərin, torpaq mülkiyyətçilərinin işə marağını artırdı.

Masallı əsasən kənd təsərrüfatı rayonudur. Burada, demək olar hamı əkib-becərməklə məşğuldur. Rayon ərazisinə daxil olan kimi bunu aydın görmək olur. Kimi kartof, çiyələk, sarımsaq yığır, kimi tütün şitili əkir, kimi üzüm bağlarını becərir, kimi də biçdiyi otu yığıb, mal-qarası üçün yem tədarük edir. Yaşıl çay yarpağı yığımına da başlanılıb. Çəltikçilər isə hələlik şitil yetişdirirlər. May ayının sonu - iyunun əvvəllərində onu sahələrə köçürəcəklər. Noxud, sarımsaq, bostan-tərəvəz sahələrində də qızğın iş gedir.

Masallı şəhərinin Seybətin döngəsinə bir neçə kilometr qalmış Ələt-Astara magistral şose yolunun solunda, palıd meşə zolağının arxa hissəsində çox da hündür olmayan dəmir karkas üzərinə polietilen örtük çəkilmiş geniş bir ərazi istər-istəməz diqqət çəkir. Burada çiyələk yetişdirilir. Bu ərazi Təzə Alvadı kəndinə aiddir. Təsərrüfatın sahibi Əbdül İsmayılovun 42 yaşı var. O, Masallının Tüklə kəndindəndir. Qardaşı Vasif İsmayılov 1993-cü ildə Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olub. Orta məktəbi bitirdikdən sonra 1994-cü ildə Rusiyaya gedən Əbdül bir neçə il Novosibirskdə tikintidə çalışıb. 2002-ci ildə Bakıya gələrək bizneslə məşğul olmağa başlayıb. Çin, Dubay və digər ölkələrdən əsasən uşaq oyuncaqları gətirib. Yaxşı qazanc götürməsinə baxmayaraq, torpaqda çalışmaq, əkib-becərmək həvəsi onu yenidən boya-başa çatdığı Masallıya çəkib. Özü ilə həmyaşıd olan bacısı oğlu Cəsarət Əzizovla işbirliyi qurmaq üçün xeyli götür-qoy ediblər. Qərara gəliblər ki, torpaqdan yapışsınlar, hamının məşğul olmadığı bir işlə məşğul olsunlar - çiyələk əkib-becərsinlər. Əvvəlcə həyətyanı torpaq sahələrində müəyyən qədər çiyələk əkiblər. Elə bu vaxt xoş bir təsadüf onların üzünə gülüb. Masallı Rayon İcra Hakimiyyəti başçısının dəvəti ilə Türkiyədən gələn və müxtəlif növ dekorativ ağacların əkilib-becərilməsində məsləhətçi qismində iştirak edən Atilla Tükəllə tanış olublar. Atilla onlara çiyələyin yetişdirilməsi təcrübəsini, texnologiyasını başa salıb və Türkiyədən onlar üçün "Sanandres" ispan çiyələk sortunun 1300 ədəd şitilini gətirib. Qısa bir vaxtda həyətyanı sahələrində həmin şitillərin sayını 7 minə çatdırıblar. 2013-cü ildə rayonun Təzə Alvadı kəndində yuxarıda söhbət açdığımız ərazidə 10 sotluq torpaq sahəsində həmin şitilləri əkiblər. Əldə etdikləri nəticə onları bu işə daha yaxından bağlayıb. 2014-cü ildə çiyələk sahəsini 1, 2015-ci ildə 8, 2016-cı ildə 20 hektara çatdırıblar. İşə həvəslə, ürəklə yapışdıqlarından uğurları da ilbəil artıb. 2017-ci ildə çiyələk sahələrinin üstünə polietilen çəkiblər. Nəticədə buradakı çiyələk açıq havadakına nisbətən 15 gün tez yetişir. Nübar məhsulu daxili və Rusiya bazarlarına göndərirlər. Qazancları yaxşıdır. Cənub bölgəsində daha bir yeniliyə imza atıblar. Çiyələyin dünya texnologiyası əsasında saxlanılması və soyudulması üçün xüsusi anbar tikirlər. Buraya alternativ enerji mənbəyi kimi generatorlar qoyublar. Yığılan məhsul burada çeşidlənərək xüsusi taralara qablaşdırılır, sonra normativə əsasən soyudulub avtorefrijeratorlara yüklənilir və lazımi ünvanlara göndərilir. Bu mövsümdən etibarən taraların bir tərəfinə xüsusi sifariş əsasında hazırlanmış "Azərbaycan məhsulu" etiketi də vurulur. Cari ildə "Uğur-SVE" adlanan bu müəssisə 20 hektarda məhsul yetişdirir ki, bundan da 8 hektarı "Abbiom", qalanı "Sanandres" sortudur.

Bütün işləri Əbdül İsmayılov dövlətdən kredit götürmədən etmişdir. Mövsüm ərzində burada hər gün 180-200 nəfər işçi çalışır. Sahibkar deyir ki, soyuducu kameraya elektrik enerjisi yaxınlıqdakı asfalt-beton zavodundan verilir. Gərginlik zəif olduğundan bəzən ortaya problemlər çıxır. Bu səbəbdən istəyir ki, obyektinə ayrıca elektrik xətti çəksin. Amma dəfələrlə müraciət etməsinə baxmayaraq, rayon elektrik təsərrüfatının rəhbərləri onun bu xahişini qulaqardına vururlar.

Deyirlər, hər şey insanın öz əlindədir. İstəsə, hər şeyi öyrənər, xariqələr yarada bilər. Bu fikri boyca cüssəli, zəhmətə, torpağa bağlı Əbdül İsmayılov və Cəsarət Əzizovla söhbət apararkən bir daha yəqin etdik. Hər ikisi əkinçiliyin, çiyələk bitkisinin yetişdirilməsi texnologiyasını, sirlərini, demək olar ki, tam mənimsəyiblər. Onlar planlaşdırıblar ki, yaxın vaxtlarda çiyələk yetişdirmək üçün istilikxana yaratsınlar, ilin bütün fəsillərində bazara məhsul çıxarıb halal zəhmətləri ilə pul qazansınlar, dövlətin qarşıya qoyduğu vəzifələrin icrasında yaxından iştirak etsinlər.

Masallıda sahibkarlığın, xüsusilə zamanın tələbindən irəli gələn kənd təsərrüfatının inkişafı üçün münbit şərait var. Bu baxımdan rayon camaatının bəxti də gətirib. Rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynov təcrübəli mütəxəssisdir. Uzun illər aqrar sahədə fəaliyyət göstərib, yaxşı, əsaslı təhlilləri, məntiqli göstərişləri ilə yerli əhalinin torpağa bağlılığını, işə inamını daha da artıra bilib. Rayonun Kolatan kənd sakini, təcrübəli fermer Hacı Etibar Sadıqovla söhbət zamanı bunu bir daha yəqin etdik. Fermer deyir ki, Prezident İlham Əliyevin kənd təsərrüfatının inkişafı ilə əlaqədar qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsi üçün Masallıda ardıcıl tədbirlər görülür: "Mülkiyyətçilər dövlətin verdiyi kreditlərin, subsidiyaların, etdiyi güzəştlərin sayəsində torpaqdan möhkəm yapışmışlar. Mənim 4 hektar çay plantasiyam, 4 hektar feyxoa, 2 hektar fındıq, 1 hektar sitrus meyvə bağım, inkubator sexim, balıq gölüm var. Göydə Allah, yerdə hökumət mənə həmişə dayaq olub. Əldə etdiyim gəlirdən çalışıram ehtiyacı olanlara, kimsəsizlərə, əlsiz-ayaqsızlara da çatsın. Hər bayram onlara sovqat paylayıram. Bura gələrkən yəqin kənd yolumuzu, yeni tikilən evləri gördünüz. Bunların hamısı son illərdə yaradılıb. Yuxarıda, dağın ətəyindəki sitrus bağını keçən il salmışıq. Bu il üstündə tək-tək meyvə var. Tinglər Cənubi Koreyadan gətirilib. Bağın salınmasının səbəbkarı icra hakimiyyətimizin başçısı Rafil müəllimdir. Doğrusu, çətinlik çəkirdim. "Darıxma, hər işin başlanğıcı çətin olur. Xeyrini görəndə hər şeyi unudacaqsan", - dedi. Qısa müddət ərzində buraya elektrik xətti çəkdik, transformator qoyduq, artezian quyusu qazdıq. Bunlar əkilən tingləri vaxtlı-vaxtında suvarmağa imkan verir. Dağın başında bir ləm də tikirəm. İnşallah, gələn dəfə oraya qalxıb çay içərik. Lənə qalxanda Xəzər dənizi kənardan ayağının altında olduğu kimi görünür".

Söz-sözü çəkir. Məlum olur ki, Hacı Etibarın sitrus bağından yuxarıda - Sığaçola ərazisində "Azərsun-Holdinq" MMC-nin çay sahələri var. MMC 2014-cü ildə burada 10, 2015-ci ildə 30 hektar çay plantasiyası salıb. Dövlət başçısının çayçılığın inkişafı ilə əlaqədar məlum sərəncamından sonra çay əkilən ərazi ümumilikdə 100 hektara çatdırılıb. Plantasiyanın yerləşdiyi sahə təbiətin gözəl bir guşəsidir. Hər tərəf dağlarla, meşələrlə əhatə olunub, təmiz dağ havası var. 100 hektar ərazidə "Kolxida" sortundan olan 2 milyon 200 min çay kolu əkilib. Bunların toxumunu qardaş Türkiyədən gətiriblər. 2014-cü ildə əkilmiş sahələrdən bu günlər ilk məhsul yığılacaq. Digər bitkilər kimi, çay üçün də suvarma suyunun olması başlıca şərtdir. Bu məqsədlə ərazidə 9 min kubmetrlik süni göl yaradılıb. Dağlardan gələn sızqa bulaq suları bura toplanır, sonra damcı və süni yağışyağdırma yolu ilə sahələr sulanır. Burada 60 nəfər çalışır. Biz orada olarkən qızlar çay kollarının cərgələri arasını alaq otlarından təmizləyirdilər.

Sahibkar mürəkkəb relyefinə baxmayaraq, maşınların hərəkəti, gediş-gəlişi üçün əraziyə yol çəkmişdir. Təsərrüfatın nə üçün belə bir ərazidə yaradılması ilə maraqlanırıq. Hacı Etibar bildirir ki, durduğumuz bu yerdə 1939-cu ildə "Kommunizm yolu" çayçılıq təsərrüfatı yaradılmışdı: "Lakin əldən-ayaqdan uzaq olduğu və gəlirlə işləmədiyi üçün 1974-cü ildə ləğv edilib. Rayon icra hakimiyyətinin başçısı Rafil müəllim bir dəfə bizim Kolatan kəndinə gəlmişdi. O, təsərrüfat işləri ilə maraqlananda mən də çaycılıqdan az-çox başı çıxan bir adam kimi burada keçən əsrin ortalarında çay əkildiyini dedim. Bir neçə gündən sonra Sığaçola dediyimiz bu əraziyə gəldi, ərazini addım-addım gəzdi, torpağını yoxladı. Sonra isə burada çay əkib-becərməyin mümkün olması barədə yuxarı orqanlara məlumat verdi. 2014-cü ildə "Azərsun-Holdinq" MMC burada plantasiyalar salmağa başladı".

İstixana təsərrüfatlı ölkədə genişlənir. Keçən il kənd təsərrüfatı üzrə ölkəmizə ən çox valyuta gətirən həmin istixanalarda yetişdirilən pomidor olmuşdur. Masallı rayonunda da bu sahədə uğurlar var. Şərəfə kəndi ərazisindəki "Masallı istixanası" 2012-ci ildə yaradılıb. İlkin halda 2 hektar olan təsərrüfat sonradan 10 hektara çatdırılıb. İstixanada təkcə pomidor yetişdirilir. Toxumu Türkiyədən gətirilən "Bandita" sortu yaxşı satılır.

İstixana yüksək səviyyədə qurulmuş sənaye müəssisəsini xatırladır. Burada əl əməyindən az istifadə olunur. İstixana sahibi İlkin Şükürov Moskvada tərəvəz ticarəti ilə məşğul olub. Ölkəmizdə sahibkarlar üçün yaradılan şəraiti görərək 2012-ci ildə Masallıya qayıdıb və sözügedən təsərrüfatı yaradıb. Hazırda burada yetişdirilən məhsul daxili bazarla yanaşı, Moskvaya da göndərilir. İsixanada 30 nəfər işçi çalışır.

Rayonda aqrar sahənin ixtisaslaşdırılması ilə əlaqədar da müəyyən tədbirlər görülür. Fermerlər arasında torpaq və iqlim şəraitinə uyğun olan kənd təsərrüfatı məhsullarının əkilib-becərilməsi məqsədilə izahat və maarifləndirmə aparılır. Taxılçılıq burada az rentabelli sahədir. Rayonda ən yaxşı halda hər hektarın məhsuldarlığı 20-22 sentner olur ki, bu da ölkə üzrə orta göstəricidən aşağıdır. Elə buna görə də rayon rəhbərliyi fermer və torpaq mülkiyyətçilərini Masallı üçün şəraitə uyğun rentabelli bitkilərin əkilməsinə istiqamətləndirən lazımi göstəriş və tövsiyələr verib. Nəticədə çəltik, noxud, sarımsaq, kartof, pomidor, tütün sahələri ildən-ilə genişlənir. Bu ilin məhsulu üçün 1051 hektar kartof, 570 hektar badımcan, 233 hektar xiyar, 878 hektar noxud, 172 hektar paxla, 73 hektar mərci, 3 hektar lərgə, 66 hektar lobya, 122 hektar bibər, 349 hektar yemiş, 85 hektar kələm, 144 hektar çiyələk, 159 hektar soğan, 19 hektar zəfəran və digər bitkilər əkilmişdir. Hazırda çəltik və tütün sahələrində əkin aparılır. 294 hektarda çəltik, 50 hektarda tütün əkilməsi planlaşdırılmışdır ki, bu da müvafiq olaraq keçən ildəkindən 99 və 19 hektar çoxdur. Keçən il isə "Masallı nemətləri" MMC çəltik zavodu tikmişdir.

Baramaçılığın inkişafı üçün də işlər görülür. Ötən il ayrı-ayrı kəndlər üzrə 12 kümçü ailəsinə 20 qutu baramaqurdu toxumu paylanılmış və ümumilikdə 469,5 kiloqram barama istehsal olunmuşdur. Cari il isə yaşayış məntəqələrində mövcud olan tut ağaclarının qeydiyyatı aparılmış, onların becərilməsi ilə əlaqədar mütəxəssislər tərəfindən tövsiyələr verilmişdir. Kənd və qəsəbələrdə 3 min yerli tut tingi əkilmişdir. Həmçinin Çin Xalq Respublikasından gətirilmiş 5 min tut tingi Seybətin yaşayış məntəqəsi ərazisində əkilmişdir.

Məlum həqiqətdir ki, fermer yetişdirdiyi məhsulun yaxşı qiymətə getdiyini görüb həvəslənir, əkin sahəsini genişləndirir. Amma eyni zamanda həmin bitkini hamı əkir. Bu da bazarda təklifin tələbi üstələməsinə səbəb olur. Məsələn, keçən il Masallı və Cəlilabad rayonlarında sellofan altında yetişdirilən kartof 1,5 manata satıldığı halda, indi 40 qəpiyədir. Açıq havada yetişdirilən və yaxın günlərdə yığılması gözlənilən kartofun daha ucuz olacağı ehtimalı yaranır. Noxud və sarımsaq əkinləri də keçən ildəkindən qat-qat çoxdur. Kəndli indi sahədən yığacağı məhsulu kimə, hansı qiymətə satacağı qayğısı ilə yaşayır. Halbuki o, əkdiyi sarımsağın kiloqramını 5 manata almışdır. Bütün bunlar Kənd Təsərrüfatı və İqtisadiyyat nazirliklərini narahat etməlidir. Ölkə rəhbərinin sərəncamı ilə kənd təsərrüfatı naziri təyin olunan İnam Kərimovun rayonlara səfər etməsi, məhsul istehsalçıları ilə görüşüb söhbətlər aparması əhali arasında böyük bir ümid yaratmışdır. Fermer, torpaq mülkiyyətçisi inanır ki, yaxın gələcəkdə zəhmət çəkib yetişdirdiyi məhsulun satılması qayğısından azad olacaq. Bir çox ölkələrdə olduğu kimi, əlaqədar qurumlar əvvəlcədən bağlanılacaq müqaviləyə əsasən, onun məhsulunu gəlib bilavasitə tarladan alacaqlar. Burada digər bir məsələni, tədarük olunan kənd təsərrüfatı məhsullarının soyuducu anbarlarda saxlanılması üçün zəruri tədbirlərin görülməsinə ehtiyacın olduğunu vurğulamaq istərdik. Belə olan halda ölkə əhalisini ekoloji cəhətdən keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə ilboyu təchiz etməyə imkan yaranar və hər il oktyabr-noyabr aylarından başlayaraq qonşu İran və Türkiyədən kartof-soğan alıb gətirməyə ehtiyac qalmaz.

Ölkəmizdə ərzaq bolluğu yaratmaq üçün hər cür əlverişli şərait var. Dövlətin həyata keçirdiyi siyasət belə deməyə əsas verir ki, daxili tələbatı tam və dolğun ödəməklə, ixrac potensialını da artırmaq mümkündür. Bu isə öz növbəsində həm ölkəyə valyuta qazandırar, həm də aqrar sahədə çalışan insanların gəlirlərinin çoxalmasına, onların sosial-rifah halının yüksəlməsinə səbəb olar. Masallıda görülən işlər, həyata keçirilən tədbirlər də bu məqsədə xidmət edir.

Seyran CAVADOV,
"Azərbaycan"

Yeni nəşrlər

Kitabsevərlərə böyük töhfə



Miniatür Kitab Muzeyinin eksponatları daha bir yeni kitabla zənginləşdi. Muzeyin təsisçisi, əməkdar mədəniyyət işçisi Zərifə Salahova "Heydər Əliyev. Təltiflər" kitabının ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə nəşr olunduğunu qeyd etdi.

Miniatür Kitab Muzeyi tərəfindən "İndigo" mətbəəsində 100 nüsxə tirajla çap edilən, ölçüsü 55x58 millimetr olan kitab 356 səhifədən ibarətdir. Miniatür kitabda 135 rəngli fotoşəkilə yer verilib. Kitaba üz tərəfdə ümummilli lider Heydər Əliyevin portreti və arxasında "95" rəqəmi qeyd olunan yubiley medalı əlavə olunub.

Zərifə Salahova Miniatür Kitab Muzeyinin respublika üçün əhəmiyyətini uzaqgörənliklə nəzərə alan ümummilli liderin muzeyin yaradılmasına böyük dəstək göstərdiyini vurğuladı. Qeyd etdi ki, Miniatür Kitab Muzeyininin kolleksiyasından 2913 kitabın "Ginnesin Rekordlar Kitabı"na salınması bu uzaqgörənliyin bariz nümunəsidir. Zərifə Salahova onu da diqqətə çatdırdı ki, 1995-ci ildən bəri Heydər Əliyevlə bağlı 36 miniatür kitab çapdan çıxıb.

"Heydər Əliyev. Təltiflər" miniatür kitabında ümummilli liderin təltif olunduğu orden və medallar, mükafatlar, layiq görüldüyü fəxri adlar haqqında məlumat toplanıb. Kitabda yazılır: "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev zəngin və mənalı həyatını büsbütün vətənimiz doğma Azərbaycanın çiçəklənməsinə və xalqımızın rifahına həsr edərək tutduğu bir-birindən uca vəzifələrdə Azərbaycan naminə fədakarlıqla çalışmışdır". Daha sonra qeyd olunur ki, ulu öndərin əvəzsiz xidmətləri həmişə yüksək qiymətləndirilmişdir. Hələ sovet dövründə Heydər Əliyev müxtəlif ali orden və medallarla təltif edilmiş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldüyü üçün anadan olduğu Naxçıvan şəhərində büstü qoyulmuşdur. Müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyəti dövründə Heydər Əliyev dünyanın bir sıra dövlətlərinin orden və medallarına, eləcə də çoxsaylı elmi adlara, müxtəlif fəxri adlara və mükafatlara layiq görülmüşdü. "Heydər Əliyev. Təltiflər" miniatür kitabının "Heydər Əlirza oğlu Əliyev" bölməsində ulu öndərin mənalı ömür yolu haqqında məlumat verilir. Heydər Əliyevin təltif olunduğu ali orden və medallar, yüksək mükafatlar haqqında informasiyalar isə "Heydər Əliyevin təltif olunduğu SSRİ-nin orden və medalları", "Orden və medallar", "Fəxri elmi adlar", "Fəxri adlar. Mükafatlar" bölmələrində toplanıb.

Miniatür Kitab Muzeyinin bölgələrdə də filialları fəaliyyət göstərir. Naxçıvan filialında 1119, Gəncə filialında 1060, Şəki şəhərindəki "Marxal" müalicə-istirahət kompleksindəki filialda 650 kitab yer alıb. Bu günlərdə oxuculara təqdim edilən, "Heydər Əliyev. Təltiflər" miniatür kitabı həmin filialların da dəyərli kitabları arasında yer tutacaq.

Zöhrə FƏRƏCOVA,
"Azərbaycan"

Akademik Musa Əliyevin Azərbaycan elmində əvəzsiz xidmətləri olub

Mayın 15-də Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) görkəmli alim, tanınmış ictimai xadim, akademik Musa Əliyevin 110 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilib. AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə ikinci Fəxri xiyabanda akademik Musa Əliyevin məzarını ziyarət edib, önünə əklil və gül dəstələri qoyublar.

Akademiyanın əsas binasında təşkil olunan tədbirdə AMEA-nın prezidenti akademik Akif Əlizadə Prezident İlham Əliyevin "Akademik Musa Əliyevin 110 illiyinin qeyd edilməsi haqqında" 2018-ci il 21 fevral tarixli sərəncamının elmimizə və alimlərimizə dövlət qayğısının daha bir göstəricisi olduğunu vurğulayıb.

Akademik Musa Əliyevin Azərbaycanda geologiya elminin inkişafına fundamental tədqiqatları ilə mühüm töhfələr verdiyi, yüksəkixtisaslı kadrların hazırlanmasında xüsusi xidmətlər göstərdiyi, onun akademiyanın prezidenti kimi respublikada intellektual potensialın formalaşdırılması və elmin perspektivli sahələrinin təşkili istiqamətində mühüm nailiyyətlər əldə etdiyi diqqətə çatdırılıb.

A.Əlizadə görkəmli alimin həm də böyük ictimai xadim olduğunu vurğulayıb. O deyib: "Musa Əliyev müxtəlif illərdə SSRİ və Azərbaycan Ali sovetlərinin deputatı, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü və katibi, Azərbaycan Nazirlər Soveti sədrinin müavini, Azərbaycan Plan Komitəsinin sədri, keçmiş Ümumittifaq "Bilik" Cəmiyyətinin Azərbaycan şöbəsinin sədri, Lenin Mükafatları Komitəsinin və Ali Attestasiya Komissiyası plenumunun üzvü, Sovet-Pakistan Dostluq Cəmiyyətinin vitse-prezidenti olub. SSRİ Neft Sənayesi Nazirliyinin kollegiyası tərəfindən "Fəxri neftçi" adına layiq görülüb. Neft sənayesində çoxillik səmərəli elmi fəaliyyətinə görə adı SSRİ Neft Sənayesi Nazirliyinin "Fəxri kitabı"na daxil edilib. Ümumittifaq Paleontoloji Cəmiyyətin fəxri üzvü seçilib".

AMEA-nın rəhbəri görkəmli alimin çoxillik məhsuldar elmi-təşkilati, pedaqoji və ictimai fəaliyyətinin yüksək qiymətləndirildiyini, onun orden, medal və fəxri fərmanlarla təltif olunduğunu, ölümündən sonra 1989-cu ildə "Azərbaycanın təbaşir faunası" monoqrafiyasına görə Azərbaycan Dövlət Mükafatı laureatı adına layiq görüldüyünü deyib.

A.Əlizadə görkəmli alimlə bağlı xatirələrini bölüşüb: "1956-cı ilin payız aylarında mənə məlumat gəldi ki, akademiyanın ovaxtkı prezidenti akademik Musa Əliyevin rəhbərlik etdiyi Geologiya İnstitutunda iki vakant ştat vahidi var və ora gənc mütəxəssislər axtarır. Həmin vaxt akademiyaya işə qəbul olunmaq çox çətin məsələ idi. Musa Əliyevlə görüşdüm, söhbət etdik. Məni işə qəbul etdi".

Musa Əliyevin görkəmli paleontoloq olduğunu deyən A.Əlizadə onun laboratoriyasında elmi istiqamətini bir daha təbabətlə bağlaya bildiyini söyləyib.

A.Əlizadə görkəmli alimin həm akademiyanın prezidenti, həm də laboratoriyanın rəhbəri kimi ilk addımından ona qayğı göstərdiyini, inandığını bildirib. Musa Əliyevin Azərbaycan elmində əvəzsiz xidmətləri olduğunu vurğulayan AMEA rəhbəri onun xatirəsinin hər zaman yaddaşlarda yaşayacağını söyləyib.

Tədbirdə AMEA-nın Yer Elmləri Bölməsinin akademik-katibi, akademik Fəxrəddin Qədirov, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru professor Mustafa Babanlı, Bakı Dövlət Universitetinin rektoru akademik Abel Məhərrəmov, bu ali məktəbin faydalı qazıntılar kafedrasının müdiri akademik Vasif Babazadə, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun tarixi etnoqrafiya şöbəsinin müdiri akademik Teymur Bünyadov və başqaları akademik Musa Əliyevin həyat və elmi fəaliyyətindən danışıb, görkəmli alimlə bağlı xatirələrini bölüşüblər.

ADA Universitetinin rektoru professor Hafiz Paşayev ailə üzvləri adından çıxış edərək alimlə bağlı xatirələrini bölüşüb, yığıncağın təşkilinə görə AMEA-nın rəhbərliyinə, həmçinin tədbir iştirakçılarına təşəkkürünü bildirib.

Akademik Musa Əliyevin həyat və yaradıcılığına həsr olunmuş sənədli film nümayiş etdirilib.

Bakıda NATO tərəfdaşlarının arxa cəbhə ekspertlərinin daimi qrupu ilə görüş keçirilir

NATO ilə əməkdaşlıq çərçivəsində Bakıda ilk dəfə tərəfdaşların arxa cəbhə ekspertlərinin daimi qrupu ilə hərəkət və nəqliyyat, dayanıqlı planlaşdırılma və hərəkət sərbəstliyi mövzularında görüşü keçirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mayın 18-dək davam edəcək tədbirdə 13 ölkədən 24 nümayəndə iştirak edir.

Ekspert qrupunun əsas məqsədi NATO əməliyyatlarına töhfə verən tərəfdaş ölkələrin maddi-texniki təminat bölmələrinin imkanlarını müəyyənləşdirərək səmərəli istifadəsi üçün inkişaf etdirmə yollarını tapmaqdır.

Əlahiddə Ümumqoşun Ordunun raket-artilleriya bölmələrinin döyüş atışlı taktiki təlimləri keçirilib

Əlahiddə Ümumqoşun Ordunun raket-artilleriya bölmələrinin döyüş atışlı taktiki təlimləri keçirilib. Təlimlərdə düşmənin qəfil hücumunun dəf edilməsi və müdafiənin əlverişli hədlər üzrə bərpası vəzifələri icra olunub. AZƏRTAC xəbər verir ki, təlimlərdə bütün tapşırıqlar uğurla yerinə yetirilib və qarşıya qoyulmuş məqsədlərə nail olunub.

Tapşırıqların uğurla yerinə yetirilməsi bir daha göstərir ki, bu gün özünün yüksək döyüş qabiliyyəti ilə seçilən və müasir hərbi texnikalarla tam təchiz edilən Əlahiddə Ümumqoşun Ordu regiondankənar digər hərbi birləşmələrin köməyi olmadan müstəqil şəkildə istənilən döyüş əməliyyatlarının koordinasiyasını həyata keçirmək və qarşıya qoyulan bütün vəzifələri dəqiqliklə yerinə yetirmək imkanına malikdir.

Güclü dövlətçiliyi təmin edən siyasət

Əvvəli 1-ci səh.

Beləliklə, müstəqil dövlətimizin beynəlxalq birlikdə öz yerini tutması, Azərbaycan həqiqətlərinin dünyada tanıdılması məhz Heydər Əliyevin xidmətləri sayəsində mümkün oldu. Yalnız onun siyasi hakimiyyətə qayıtmasından sonra Azərbaycan özünün geosiyasi imkanlarını gerçəkləşdirə bildi, ölkənin beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi aradan qalxdı. Bütün bunlar bir daha təsdiq edir ki, müasir Azərbaycanın memarı və qurucusu kimi Heydər Əliyevin fəaliyyətinin çoxəsrlik dövlətçiliyimiz tarixində müstəsna yeri var.

Heydər Əliyev görkəmli siyasi və dövlət xadimi idi. Məhz buna görə də ulu öndərin bütün sahələrdə olduğu kimi, dövlət idarəçiliyində də zəngin təcrübəsi vardı. Məhz bunun nəticəsi idi ki, Azərbaycanda 1993-cü ildən sonra dövlət quruculuğu uğurla həyata keçirilməyə başladı. Onun dühasının qüdrəti sayəsində Azərbaycanın demokratik quruculuq və milli inkişaf yolu spesifik yönümdə, onun milli xüsusiyyətləri və xalqın mənəvi dəyərləri nəzərə alınmaqla həyata keçirilməyə başladı. Ölkədə siyasi və milli-ideoloji birliyin təməli qoyuldu, dövlətçilik ənənələri milli düşüncə tərzinə çevrildi, vətəndaşlarımızın ümdə əqidəsi oldu. Bir sözlə, dövlət quruculuğu sahəsində nailiyyətlər, qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin qurulması və sair bu kimi uğurlar Heydər Əliyev dühasının bəhrələri idi.

Mayın 10-da ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə çıxış edən Prezident İlham Əliyev ulu öndərin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrü təhlil edərək deyib: *"Məhz o illərdə bizim inkişafımızla bağlı strateji seçimlər edilmişdir ki, Azərbaycan müasir, demokratik ölkə kimi inkişaf etməlidir. İqtisadi islahatlara start verilmiş, bazar iqtisadiyyatı prinsipləri əsas prinsiplər kimi tətbiq olunmağa başlamışdır. Azərbaycan beynəlxalq aləmlə münasibətləri qura bilmişdir və demək olar ki, müstəqilliyimizin ilk illərində mövcud olan beynəlxalq təcriddən də çıxa bilmişdir. Ölkəmiz üçün lazım olan beynəlxalq əlaqələr Azərbaycana investisiya cəlb edilməsinə gətirib çıxarmışdır. 1994-cü ildə "Əsrin kontraktı" imzalanmışdır. Bu kontraktın bizim tariximizdə, iqtisadi inkişafımızda müstəsna rolu vardır. 1995-ci ildə müstəqil dövlətin Konstitusiyası qəbul edilmişdir. Eyni zamanda, 20 Yanvar faciəsinə siyasi və hüquqi qiymət verilmişdir. Əfsuslar olsun ki, ondan əvvəlki hakimiyyət bu məsələyə biganə qalmışdır. Azərbaycan uğurla inkişaf etməyə başlamışdır. 1993-2003-cü illərdə ölkə qarşısında duran vəzifələr uğurla icra edilmişdir. Ordu quruculuğu işində böyük addımlar atılmışdır, uğurlu Horadiz əməliyyatı keçirilmişdir və torpaqlarımızın bir hissəsi işğalçılardan azad edilmişdir. Yəni, 10 il ərzində Azərbaycanda dövlət quruculuğu işində çox böyük addımlar atılmışdır və bu addımlar bu gün bizim uğurlu siyasətimizi şərtləndirir".*

Dünyada qəbul edilən söz sahibliyi

Bu gün Heydər Əliyev ideyalarının alternativi olmadığını xalqımız çox gözəl anlayır. Bu ideyaların həyata keçirilməsini təmin edən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin öz inkişafının yeni mərhələsinə qədəm qoyması, əldə etdiyi siyasi-iqtisadi uğurlar, beynəlxalq mövqelərini möhkəmləndirməsi Heydər Əliyev yolunun nə qədər düzgün olduğunu əyani şəkildə göstərdi.

Son 15 ilin siyasi mənzərəsi göstərir ki, Prezident İlham Əliyevin siyasi uzaqgörənliyi, diplomatik gedişləri ölkəmizin mövqelərini davamlı olaraq gücləndirib. Cənab İlham Əliyev Azərbaycanın dövlət siyasətini milli maraqlarımız çərçivəsində beynəlxalq siyasi və iqtisadi proseslərlə uzlaşdırır, konstruktiv, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, regional və qlobal miqyasda sabitliyə xidmət edən siyasi xətt yeridir. Bütün bunlar göstərir ki, ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasını böyük müvəffəqiyyətlə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən siyasət bu gün müstəqil Azərbaycanın dünya miqyasında mövqelərinin daha da güclənməsinə gətirib çıxarıb.

Ölkəmiz daim dəyişən beynəlxalq mühitə uyğun çevik siyasi kursla yanaşı, müstəqilliyinin və suverenliyinin gücləndirilməsinə, ərazi bütövlüyünün bərpasına istiqamətlənmiş fəal xarici siyasət yürüdür. Bu mənada son illər sülh danışıqları prosesində Ermənistanın çıxılmaz vəziyyətə salınması, beynəlxalq təşkilatlarda Azərbaycan ərazilərinin işğalını pisləyən sənədlərin qəbul edilməsi Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin məntiqi nəticəsi, Azərbaycanın diplomatik sahədə böyük uğurlarıdır. Bu mənada ölkə rəhbərliyinin həyata keçirdiyi siyasət milli və dövlət maraqlarımızın təmin olunması, inkişafı və Azərbaycanın mövqelərinin dünyada möhkəmləndirilməsi deməkdir.

Beynəlxalq münasibətlər sistemində baş qaldıran təbəddülatlar, dünyanı cənginə alan maliyyə-iqtisadi böhran, enerji təhlükəsizliyi məsələlərinin getdikcə daha aktual şəkil alması, sivilizasiyalararası dialoqun təhdidi dövlətləri həyata keçirdikləri siyasətə yenidən baxmağa vadar edir. Mövcud reallıqlar göstərir ki, bir sıra dövlətlər dünyada nəyin baş verib-verməməsindən asılı olmayaraq, ümumiyyətlə, nəinki müstəqil xarici, hətta daxili siyasət belə həyata keçirə bilməkdən məhrumdurlar.

Məsələyə bu kontekstdən yanaşsaq, əminliklə deyə bilərik ki, regionun lider dövləti olan Azərbaycan həm də tam müstəqil siyasət yeridən, öz taleyini özü müəyyən edən dövlətdir. Digər tərəfdən, Şərq və Qərbin qovuşuğunda yerləşən Azərbaycan həm Avropa, həm də Asiya dövlətləri və təşkilatları ilə milli maraqlarımıza xidmət edən əməkdaşlıq edir. Respublikamız həm də Avropa ilə Asiyanı daha sıx bağlayan nəhəng iqtisadi və enerji layihələrinin təşəbbüsçüsü və təşkilatçısı kimi çox böyük nüfuz, etibar qazanıb. Azərbaycanın qətiyyətli mövqeyi Cənubi Qafqazda hər hansı taleyüklü məsələnin həllini, transmilli layihənin reallaşmasını ölkəmizin iştirakı olmadan mümkünsüz edir.

"Son 15 il ərzində Azərbaycan Heydər Əliyevin qoyduğu yolla uğurla, inamla gedir. Azərbaycanda sabitlik tam təmin olunur, sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Biz indi görürük ki, dünyanın müxtəlif yerlərində vəziyyət gərginləşir, yeni münaqişələr, qanlı toqquşmalar, vətəndaş müharibələri, çevrilişlər baş verir. Ona görə baş verir ki, insanlar hakimiyyətdən narazıdırlar. Ona görə baş verir ki, hakimiyyət lazım olan səviyyədə, düzgün siyasət aparmır, insanları narahat edən problemləri həll etmir, iqtisadi inkişafı təmin edə bilmir, böyük pozuntulara yol verir. Azərbaycanda isə sabitliyin təminatçısı, onun qarantı Azərbaycan xalqıdır və xalq-iqtidar birliyidir. Bu gün Azərbaycan dünya miqyasında ən sabit və ən uğurla inkişaf edən ölkələrdən biridir" - deyə Prezident İlham Əliyev bildirib.

Ötən 15 ildə ulu öndər Heydər Əliyevin başlatdığı və bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi kurs güclü Azərbaycan dövlətinin qurulmasını, onun yerləşdiyi bölgənin liderinə, dünyada isə söz sahibinə çevrilməsini təmin edib. Bu siyasətin uğurlu nəticəsidir ki, Azərbaycan dünya birliyinin fəal və qəbul edilən üzvü kimi beynəlxalq mövqelərini ildən-ilə gücləndirir. Azərbaycanın həyata keçirdiyi daxili və xarici siyasət milli maraqlarımızı, dövlətimizin qlobal miqyasda mövqelərini layiqincə təmin edir. Eyni zamanda, bu siyasət müasir beynəlxalq münasibətlərdə mövcud çağırış və təhdidlərə adekvat reaksiya verərək özünü uğurla doğruldur.

Rəşad CƏFƏRLİ,
"Azərbaycan"

Bakı şəhəri "Expo 2025" ümumdünya sərgisinin namizədlik prosesində növbəti mərhələyə adlayıb

Beynəlxalq Sərgilər Bürosunun (BSB) İcraiyyə Komitəsi mayın 4-də keçirilmiş iclasının ümumi hesabatını dərc edib. Bu hesabata Bakı şəhərinin 2025-ci ildə ümumdünya sərgisinə namizədliyi məqsədilə ölkəmizdə səfərdə olmuş Beynəlxalq Sərgilər Bürosunun Qiymətləndirmə Missiyasının rəyi də daxil edilib.

"Bakı Expo 2025" Əməliyyat Katibliyindən AZƏRTAC-a bildiriblər ki, 2025-ci ildə Beynəlxalq Sərgilər Bürosunun ümumdünya sərgisinə evsahibliyinə Bakı şəhərinin namizədliyi üzrə İşçi Qrupu Bakı şəhərinin növbəti mərhələyə keçdiyini və finala doğru irəliləməkdə olduğunu qürurla bildirir. Bu ilin noyabrında Parisdə təşkil ediləcək Beynəlxalq Sərgilər Bürosunun Baş Assambleyasının 164-cü sessiyasında üzv dövlətlər 2025-ci ildə Beynəlxalq Sərgilər Bürosunun ümumdünya sərgisinə evsahibliyi edəcək şəhəri seçəcəklər.

2025-ci ildə Beynəlxalq Sərgilər Bürosunun ümumdünya sərgisinə evsahibliyinə Bakı şəhərinin namizədliyi üzrə Qiymətləndirmə Missiyasının rəsmi hesabatında deyilir: "Expo sərgisinin Bakıda keçirilməsi Azərbaycanın böyük beynəlxalq tədbirlərə evsahibliyi etməsi istiqamətində təcrübəsinin artırılmasına və bu statusun daha da möhkəmləndirilməsinə məntiqi və böyük dəstək olacaq".

Qiymətləndirmə Missiyası ölkə səviyyəsində sərgiyə evsahibliyi ilə bağlı fikir birliyini və bunun inkişaf strategiyası ilə üst-üstə düşməsini də qeyd edib. Həmçinin "İnsan kapitalını inkişaf etdirərək daha yaxşı gələcək quraq" mövzusunun əhəmiyyətini olduqca təqdirəlayiq hesab edib və bildirib ki, bu mövzu çoxsaylı ölkələr üçün cəlbedici və mühüm olmaqla bərabər, hazırkı iqtisadi və sosial transformasiyaları və çağırışları nəzərə alır. Bununla yanaşı, Azərbaycanın bu mövzunu təqdim etməsinin məqsədəuyğun olduğu da bildirilib. Qeyd edilib ki, missiya bu mövzunun sərginin yerli xüsusiyyətinə son dərəcə uyğun olduğunu və iştirakçıların cəlb edilməsi üçün güclü potensial təşkil edə biləcəyini güman edir.

Azərbaycan Respublikasının maliyyə naziri, "Bakı Expo 2025" Ümumdünya Sərgisinin işçi qrupunun sədri Samir Şərifov deyib: "Biz Beynəlxalq Sərgilər Bürosunun İcraiyyə Komitəsinə və Qiymətləndirmə Missiyasına təklifimizlə bağlı hazırladıqları ətraflı və müsbət hesabata görə təşəkkür edirik. Gələn ay Beynəlxalq Sərgilər Bürosunun Baş Assambleyasının Parisdə keçiriləcək 163-cü sessiyası zamanı Beynəlxalq Sərgilər Bürosunun üzvlərinə Bakı şəhərinin namizədliyi ilə bağlı planlarımızı təqdim etməyi səbirsizliklə gözləyirik".

Beynəlxalq Sərgilər Bürosunun 6 expo sərgilərində 18 il ərzində öz pavilyonları ilə fəal iştirak etmiş və pavilyonlarının yüksək keyfiyyətlərinə görə üç mükafat qazanmış Azərbaycan expo hərəkatına güclü bağlılıq nümayiş etdirir.

Bakı şəhərinin namizədliyi seçilərsə, "Expo 2025" ümumdünya sərgisi 2025-ci il mayın 10-dan noyabrın 10-dək altı ay ərzində keçiriləcək. Bu, Beynəlxalq Sərgilər Bürosunun bütün regionda təşkil ediləcək ilk ümumdünya expo sərgisi olacaq.

Ermənistan silahlı bölmələri iriçaplı pulemyotlardan istifadə edərək atəşkəs rejimini 87 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 87 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Qaymaqlı, Quşçu Ayrım, Qızılhacılı kəndlərində, eləcə də Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Kəngərli, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

Xarici ticarətdə 2,5 milyard dollarlıq müsbət saldo qeydə alınıb

Qeyri-neft məhsullarının ixracı 30 faizə yaxın artıb

Dövlət Statistika Komitəsinin yaydığı məlumatda bildirilir ki, cari ilin yanvar-mart aylarında Azərbaycan dünyanın 146 ölkəsi ilə ticarət əməliyyatları həyata keçirmişdir. 92 ölkəyə məhsul ixrac olunmuş, 136 ölkədən idxal edilmişdir.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla bu dövrdə xarici ticarət dövriyyəsi 6 milyard 894,6 milyon, o cümlədən ixracın dəyəri 4 milyard 703,5 milyon, idxalın dəyəri 2 milyard 191,1 milyon dollar olmuş və nəticədə 2 milyard 512,4 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır. 2017-ci ilin yanvar-mart ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 34,9, real ifadədə 6,3, o cümlədən ixrac 5,3, idxal 8,7 faiz artmışdır.

Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, ixracın 19,2 faizini İtaliyaya, 9,2 faizini İsrailə, 7,8 faizini Türkiyəyə, 6,2 faizini Çexiyaya, 6 faizini İndoneziyaya, 5,6 faizini Almaniyaya, 5,1 faizini Avstriyaya, 4,8 faizini Kanadaya, 4,2 faizini Hindistana, 4,1 faizini Tayvana (Çinin əyaləti), hər biri 3,5 faiz olmaqla Rusiya və ABŞ-a, 2,9 faizini Gürcüstana, 2,3 faizini Yunanıstana, qalan 15,5 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

Ölkəmizə idxal olunan məhsulların ümumi dəyərinin 17,3 faizi Rusiya, 14,3 faizi Türkiyə, 10 faizi Çin, 8,8 faizi Almaniya, 4,8 faizi ABŞ, 3,9 faizi Ukrayna, 3,8 faizi Belarus, 3,3 faizi İtaliya, 2,8 faizi İran, 2,3 faizi Çexiya, 2,2 faizi Qazaxıstan, 26,5 faizi isə digər ölkələr ilə aparılmış əməliyyatların payına düşmüşdür.

Hesabat dövründə 356,4 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac edilmişdir ki, bu da 2017-ci ilin yanvar-mart aylarına nisbətən faktiki qiymətlərlə 34,8, real ifadədə isə 29,6 faiz çoxdur.

"Azərbaycan"

Ramazan ayının başlanması ilə əlaqədar fətva verilib

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası və Elmi-Dini Şurası mübarək Ramazan ayının başlanması ilə əlaqədar fətva verib. AZƏRTAC xəbər verir ki, fətva mayın 15-də QMİ-də Şeyxülislam Allahşükür Paşazadənin sədrliyi ilə keçən toplantıda verilib.

Fətvada deyilir ki, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və Elmi-Dini Şurası əvvəli rəhmət, ortası məğfirət, sonu isə Cənnət müjdəsi olan mübarək Ramazan ayının başlanması münasibətilə dünya və ölkə müsəlmanlarını təbrik edir, ibadətlərimizin, dualarımızın Allah dərgahında qəbul olunmasını diləyir və bildirir: Azərbaycan Milli Elmlər Akademiyası Şamaxı Astrofizika Rəsədxanasının 2018-ci il üzrə hesablamalarına görə, Ramazan ayının 1-i Ayın ölkə ərazimizin üfüqünə uyğun görünməsinə əsasən Miladi tarixlə may ayının 17-nə təsadüf edəcək və Ay göründüyü andan Ramazani-şərif başlayacaq. Mayın 16-dan 17-nə keçən gecə isə niyyət gecəsidir. "Qurani-Kərim"in nazil edildiyi Qədr gecələrinin olduğu, günahların silindiyi və savabların ikiqat artdığı Ramazan ayında oruc tutmaq Uca Yaradan tərəfindən bütün müsəlmanlara vacib edilib. Bəşərin hidayət rəhbəri olan müqəddəs Kitabımızda bu İlahi əmr barədə belə buyurulur: "İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) Ramazan ayında nazil edilmişdir. Aya (Ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutsunlar" ("Bəqərə", 185). Orucun fəzilətlərindən bəhs edən Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Oruc (insanı) Cəhənnəm odundan qoruyan bir qalxandır".

Fətvada bildirilir ki, oruc ibadəti mənəvi saflığa, tibbi cəhətdən sağlam olmağa, pis vərdişlərdən uzaq durmağa və Allah yolunda xeyirxah işlər görməyə səbəb olur. İlahi dərgaha edilən həmd-sənanın açarı olan orucun sayəsində insan aclığa, susuzluğa tab gətirərək nəfsani istəklərinə qalib gəlir. Oruc səbrin və mənəviyyatın imtahanı, xeyirxah niyyətlərin ən uyğun formasıdır. Bu ayda uşaq evlərinə, ehtiyacı olanlara, ahıl və kimsəsizlərə imkan daxilində kömək etmək Qadir Allahın nəzərində bəyənilən əməllərdəndir. İlahi rəhmətin bol olduğu Ramazani-şərifdə ən böyük savab "Qurani-Kərim"i tilavət etmək, qohum-əqrəbaya baş çəkmək, dünyasını dəyişənlərin ruhlarını yad etmək, elm və fəzilət sahiblərinə ehtiram göstərmək, insanlar arasında ünsiyyət, dostluq və qarşılıqlı hörməti təbliğ etməkdir.

Qeyd edilir ki, Qafqaz Müsəlmanları İdarəsi hər il olduğu kimi, bu il də AMEA Şamaxı Astrofizika Rəsədxanası ilə birgə Ramazan ayının başlanğıcı, namaz vaxtları və gündəlik dualarını, eləcə də bayram tarixini müəyyənləşdirən xüsusi təqvim tərtib edib. Qazılar Şurası və Elmi-Dini Şura bildirir ki, digər mənbələrdən əldə edilən, təxribat və təfriqə xarakteri daşıyan, habelə məzhəb və vaxt ayrı-seçkiliyi yaradan təqvimlərin dindarlar tərəfindən istifadəsi yolverilməzdir, din xadimləri belə halların qarşını almağa məsuldurlar. Ümid edirik ki, Azərbaycan Respublikasının Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyətlərinin müvafiq qurumları da bu məsələdə bizə kömək edəcək, məhz QMİ-nin tərtib etdiyi təqvimin kütləvi informasiya vasitələri və sosial mediada təbliğinə, yayılmasına nəzarət edəcəklər.

İnşallah, Eydül-Fitr - Ramazan bayramı (Şəvval ayının 1-i) Ayın üfüqi ərazimizdə görünməsindən asılı olaraq iyunun 15-nə təsadüf edəcək. Xalqımız tərəfindən hər il böyük coşqu ilə keçirilən Ramazan bayramı, eyni zamanda, dövlət səviyyəsində və qeyri-rəsmi iş günü kimi qeyd olunur. Bu, dövlətimizin, habelə dövlət başçısının milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan dini dəyərlərimizə hörmət və ehtiramının, diqqət və qayğısının təzahürüdür, dövlət-din münasibətlərinin bariz nümunəsidir və ölkə dindarları tərəfindən rəğbətlə qarşılanır. Orucun mühüm əməllərindən biri olan fitrə zəkatının vaxtı Ramazan ayının son günüdür. Fitrə canın sədəqəsi sayılır və imkanı olan müsəlman ailəsinin hər bir üzvü üçün fitrə zəkatı çıxarıb imkansızlara, ehtiyaclı ailələrə verməyə mükəlləfdir. Qazılar Şurasının qənaətinə görə, bugünkü günə uyğun olaraq adambaşına 5-10 manat arası fitrə zəkatının verilməsi məsləhət görülür.

"QMİ Qazılar Şurası və Elmi-Dini Şurası din xadimlərimizə bir daha xatırladır ki, mübarək Ramazan ayı ərzində iftar vaxtından qabaq açılan süfrələrdə iştirak etmək müqəddəs dinimizə görə böyük günahlardandır və xəbərdarlığımızı nəzərə almayanlar barəsində ciddi tədbirlər görüləcək. Qazılar Şurası tövsiyə edir ki, bu əziz günlərdə dinimizdə müqəddəs sayılan şəxslərlə yanaşı, vətənimiz və torpaqlarımız naminə canlarından keçən şəhidlərimizin də xatirəsi yad edilsin, ruhlarına dualar oxunsun, xütbə və moizələrdə vətənpərvərlik hisslərinin təbliğinə xüsusi diqqət yetirilsin. Duaların qəbula yetdiyi Ramazan ayında müasir və müstəqil Azərbaycanımızın banisi ümummilli lider Heydər Əliyevi rəhmətlə yad edir, dövlətçiliyimizin möhkəmlənməsi, millətimizin rifahı naminə böyük işlər görən və xalqımızın dəstəyi ilə yenidən respublika Prezidenti seçilən İlham Əliyevə Allah-Təaladan xeyir-dualar diləyirik. Qadir Allah dünyada və ölkəmizdə sülhü və əmin-amanlığı bərqərar eləsin, vətənimiz Azərbaycana xoşbəxt və firavan gələcək nəsib etsin, gələn ilin zəfər dolu və qələbə müjdəli Ramazan bayramını doğma Qarabağımızda qeyd etmək sevincini xalqımıza yaşatsın! Allah oruc və namazlarınızı qəbul etsin! Amin!", - deyə fətvada bildirilir.

Toplantıda Şeyxülislam Allahşükür Paşazadə, AMEA-nın Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının direktoru Namiq Cəlilov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, QMİ-nin Elmi-Dini Şurasının sədri Vasim Məmmədəliyev və digərləri çıxış ediblər.

Mübarək Ramazan ayı başlayır

Bu gün orucluğun niyyət axşamıdır

Müsəlman dünyası sevincli günlər ərəfəsindədir. Möminlərin on bir aydır səbirsizliklə gözlədikləri məqam gəlib çatır. Bu gün orucluğun niyyət axşamıdır. Bu axşam müsəlmanlar mübarək Ramazan ayı boyunca tutacaqları oruc üçün niyyət edəcək, sabah isə oruc tutmağa başlayacaqlar.

Hicri-qəməri təqvimin doqquzuncu ayında - Ramazan ayında oruc tutmaq hər bir müsəlman üçün vacibdir, çünki oruc islamın beş fərzindən biridir. Ağıllı, həddi-büluğa çatmış, oruc tutması üçün üzrlü səbəb olmayan hər bir şəxs oruc tutmalıdır. Bir ay ərzində müsəlmanlar günün işıqlı vaxtında oruc tutub yemək-içməkdən və cinsi əlaqədən uzaq olacaqlar.

Qeyd etmək lazımdır ki, oruc islamla başlamamışdır, insanlar islamdan əvvəl də oruc tutmuşlar. Bu, Qurani-Kərimin Bəqərə surəsində açıq-aşkar ifadə edilmişdir: "Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) pis əməllərdən çəkinəsiniz!.. (Oruc tutmaq) sayı müəyyən olan (bir ay) günlərdir. (Bu günlərdə) sizdən xəstə və ya səfərdə olanlar tutmadığı günlər qədər başqa günlərdə oruc tutmalıdırlar. Oruc tutmağa taqəti olmayanlar isə (hər günün əvəzində) bir yoxsulu doyduracaq qədər fidyə verməlidirlər. Hər kəs könüllü xeyir iş görərsə (həm oruc tutub, həm də fidyə verərsə), bu onun üçün daha yaxşı olar. Bilsəniz oruc tutmaq sizin üçün nə qədər xeyirlidir!".

Oruc tutmaq Tanrının buyuruğu olmaqla bərabər, böyük əxlaqi-mənəvi, sosial əhəmiyyətə malikdir. Hədisi-şərifdə deyilir ki, "oruc sipərdir", yəni, müsəlmanı pis əməllərdən qoruyan gizli silahdır. Oruc tutan insan qeybət qılmaq, söyüş söymək, dava-dalaş salmaq kimi naqis əməllərdən çəkinməlidir. Peyğəmbərimiz demişdir: "Oruc insanla günah arasında sanki bir pərdədir. Sizdən biriniz oruc tutduqda pis söz danışmasın! Onu söyənə və ya vuruna "mən orucam" desin".

Ramazan ayı boyunca insanlar arasında bir-birinə məhəbbət, hörmət, şəfqət, dostluq, qardaşlıq, həmrəylik münasibətləri hökm sürməlidir. Oruc tutanlar düşmənçiliyə, umu-küsüyə son qoymalıdırlar. Hamı bir-birinə münasibətdə mərhəmətli olmağı, bir-birini bağışlamağı bacarmalıdır. Allah-təala oruc tutmağı buyurmaqla bütün insanların dinc, mehriban şəraitdə yaşamasının zəruriliyini xatırladır.

Ramazan müsəlmanın mənəvi inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Məlumdur ki, yemək-içmək, cinsi əlaqə kimi cismani ehtiyaclar insan həyatında güclü amillərdəndir. İlin bir ayında oruc tutmaqla müsəlman cismani ehtiyacların hökmranlığından azad olur və mənəvi-ruhi cəhətdən təkmilləşmək imkanı əldə edir.

Oruc insanda dözüm, iradə və təmkin tərbiyə edir, nəfsə hakim olmaq vərdişləri aşılayır. Ramazan ayında oruc tutmağı buyuran Tanrı insanı sınağa çəkir: varlı kasıbın sosial vəziyyətini dərk edir, ona münasibətdə xeyirxah olmağın vacibliyini anlayır. Oruc insanı yaxşı işlər görməyə sövq etməklə yanaşı, pis əməllərdən də çəkindirir. Aparılmış çoxsaylı araşdırmalar göstərir ki, Ramazan ayı boyunca müsəlman ölkələrində cinayətkarlığın səviyyəsi açıq-aşkar aşağı düşür.

Eyni zamanda, bir ay oruc tutmaq insanın sağlamlığında mühüm rol oynayır. Peyğəmbərimiz Məhəmməd salavatullah buyurmuşdur: "Oruc tutun ki, sağlam olasınız!" Qədim zamanlardan bəri oruc insanın sağlamlığını möhkəmlətmək, müxtəlif xəstəlikləri müalicə etmək üçün təbii vasitə kimi nəzərdən keçirilir. Antik dövrdə Sokrat, Platon, Aristotel kimi böyük mütəfəkkirlər müəyyən müddət ac qalmağı, başqa sözlə, oruc tutmağı tövsiyə etmişlər. Müasir alimlər də yemək-içməkdən imtina edilməklə bir çox xəstəliklərin müalicəsində uğurlu nəticələr əldə etmişlər.

Oruc insan psixikasına, əsəb sisteminə müsbət təsir göstərir. Heyrətamiz haldır ki, oruc bir sıra psixiatrik xəstəliklərin, hətta şizofreniyanın müalicəsində təsirli vasitədir.

Bir çox dərdin dərmanı elə insan orqanizminin özünün daxilindədir. Bu gün həkimlər təsdiqləyirlər ki, oruc tutmaq hamı üçün, hətta sağlam adamlar üçün həyati zərurətdir. İnsan qida qəbul edərkən, nəfəs alarkən həm də külli miqdarda toksin maddə qəbul edir. Bu zərərli maddələri bədəndən oruc tutmaqla kənarlaşdırmaq mümkün olur.

Oruc tutarkən mədə, bağırsaqlar, qara ciyər və həzm prosesində iştirak edən digər orqanlar istirahət edir. Bu isə həzm sisteminin yaxşılaşmasına gətirib çıxarır. Qan təmizlənir, beyin daha yaxşı işləyir. İnsanın cismində zəif, xəstə, yaxud zədələnmiş hüceyrələr yeniləri ilə əvəzlənir. Ümumiyyətlə, insan orqanizminin elə bir üzvü yoxdur ki, orucun müsbət təsirinə məruz qalmasın.

Oruc bel, onurğa, boyun ağrılarının sağalmasına kömək edir. Norveçdə aparılmış elmi tədqiqat nəticəsində məlum olmuşdur ki, qida qəbulundan imtina oynaqların iltihabının müalicəsində effektiv vasitədir - bir şərtlə ki, xəstə dörd həftə ac qalsın. Bu isə təxminən Ramazan orucunun müddətinə bərabərdir! Həkimlər mədə-bağırsaq xəstəliklərindən müalicə zamanı da elə bu qədər pəhriz saxlamağı məsləhət görürlər.

Qeyri-müsəlman ölkələrində aparılmış və on minlərlə xəstəni əhatə etmiş araşdırmalar sübuta yetirmişdir ki, oruc bir çox digər xəstəliklərin, o cümlədən yüksək qan təzyiqinin, qara ciyər, dəri xəstəliklərinin, xüsusilə allergiya və xroniki ekzemanın və s. müalicəsinə kömək edir. Bundan başqa, oruc bir çox insanların əziyyət çəkdiyi köklükdən və onun doğurduğu xəstəliklərdən qurtulmaq üçün təsirli vasitədir. Eyni zamanda, oruc pis vərdişləri (siqaretə, narkotik maddələrə aludə və s.) tərgitməyə kömək edir.

Orucun mənəvi-əxlaqi və fiziki faydaları çoxdur. Eyni zamanda, yaddan çıxarmaq olmaz ki, Ramazanda oruc hansısa fayda naminə yox, Allahın əmrini yerinə yetirib Onun rizasını qazanmaq üçün tutulur.

Bu mübarək ayda Tanrıya edilən dualar daha tez qəbul olunandır. Vətən torpağının düşmən tapdağından qurtulması, didərgin soydaşlarımızın yurd-yuvalarına qayıtması üçün dua edək! Allah orucunuzu və müqəddəs ayda edəcəyiniz duaları qəbul eləsin! Amin!

Allahverdi MEHDİYEV,
"Azərbaycan"

Almaniyanın Frankfurt şəhərində IMEX sərgisi açılıb

Azərbaycan Konqreslər Bürosu iştirakçı ölkələr arasında ən yaxşı nümayiş stendinə görə təşəkkür məktubu alıb

Mayın 15-dən Almaniyanın Frankfurt şəhərindəki "Frankfurt Messe"də dünyanın ən nəhəng turizm sərgilərindən biri olan IMEX sərgisi açılıb. AZƏRTAC xəbər verir ki, dünyanın müxtəlif ölkələrindən yüzlərlə təşkilatın iştirak etdiyi bu sərgidə respublikamızı Azərbaycan Konqreslər Bürosu (AzKB) uğurla təmsil edir.

Mayın 17-dək davam edəcək sərgidə Azərbaycan Konqreslər Bürosunun stendi ilk gündən təşkilatçılar və ziyarətçilər tərəfindən böyük maraqla qarşılanıb. IMEX rəhbərliyinin Azərbaycan Konqreslər Bürosuna ünvanladığı təbrik məktubu bunun əyani təsdiqidir. Məktubda Azərbaycan Konqreslər Bürosuna yüksək səviyyədə iştirakına görə minnətdarlıq edən IMEX-in təşkilati və satış işləri üzrə baş meneceri Oliver Bailey Büronu sərginin ilk günündən əldə etdiyi uğura görə təbrik edib.

IMEX sərgisi hər il dünyanın MİCE sənayesinin bütün sektorlarından 3500-dən çox təchizatçını Frankfurtda bir araya gətirir.

Qeyd edək ki, 2013-cü ildən fəaliyyətə başlayan Azərbaycan Konqreslər Bürosunun vəzifələrindən biri Azərbaycana irimiqyaslı beynəlxalq tədbirləri cəlb etmək və ölkəmizin beynəlxalq səviyyəli tədbirlər məkanı kimi təbliğidir. Bu məqsədlə Büro dünyanın müxtəlif ölkələri ilə işləyir, hədəf bazarlarla yaxın əlaqələr qurur, bazar iştirakçılarını ölkəyə cəlb etməyə çalışır, əməkdaşlıq üçün beynəlxalq konqres və seminarlarda fəal iştirak edir.

Azərbaycan Konqreslər Bürosu ölkəmizdə işgüzar turizmin, həmçinin digər iqtisadi sektorların inkişafı üçün strategiya hazırlayaraq icra edir. Qurumun başlıca məqsədi dəyərli məlumat və dəstək xidmətlərini təmin etməklə, habelə yerli sənaye tərəfdaşlarının maraqlarını qorumaqla Azərbaycanın nüfuzunu dünya səviyyəli toplantı və görüş məkanı kimi möhkəmləndirməkdir.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 1 sentyabr tarixli sərəncamına əsasən Bakı şəhərində ticarət festivalının təşkili Azərbaycan Konqreslər Bürosu tərəfindən həyata keçirilir. 2017-ci il aprelin 10-dan mayın 10-dək Azərbaycanda ilk dəfə olaraq Bakı Şopinq Festivalı keçirilib. Bu layihə ötən ilin payızında da (15 oktyabr-15 noyabr) uğurla təkrarlanıb. Hər iki festival şəhərimizin qonaqları, yerli alıcılar və ticarət sektorunun iştirakçıları tərəfindən çox böyük maraq və məmnuniyyətlə qarşılanıb. Üçüncü şopinq festivalı bu il mayın 1-dən start götürüb. Festival mayın 31-dək davam edəcək.

İqtisadi sektorda 1,5 milyondan çox işçi çalışır

Aprelin 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 532,3 min nəfər olmuşdur. Onlardan 888,9 min nəfəri iqtisadiyyatın dövlət, 643,4 min nəfəri qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, muzdla işləyənlərin 21,7 faizi təhsil, 19 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,5 faizi sənaye, 8,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,1 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 6,2 faizi tikinti, 4,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,6 faizi maliyyə və sığorta fəaliyyəti, 11,1 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

Cari ilin yanvar-mart aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,5 faiz artaraq 532,4 manata çatmışdır. Amma bu dövrdə iqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, nəqliyyat və anbar təsərrüfatı, eləcə də tikinti sahələrində isə orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

"Azərbaycan"

Azercell

abunəçilərinin nəzərinə

14.04.2018-ci il tarixli "Azərbaycan" qəzetində və internet saytımızda yayımlanmış elanı nəzərə almamağı xahiş edir və bildiririk ki, 15.05.2018-ci il tarixinə SMS xidmətində nəzərdə tutulmuş tarif dəyişikliyi tətbiq edilməyəcək, müvafiq xidmət ilə əlaqədar mövcud tariflərə uyğun hesablanma davam edəcək.

Azercell

abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 17-18.05.2018-ci il tarixlərdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

B i l d i r i ş

Talassemiya Mərkəzi PHŞ tərəfindən 16 mart 2018-ci il tarixdə 2018-ci il üzrə büdcə vəsaiti hesabına dərman vasitələri, sarğı ləvazimatları və materiallarının satın alınması üçün keçirilmiş tenderin nəticələrinə uyğun olaraq 4 may 2018-ci il tarixində Tender LOT-ları üzrə aşağıdakı qalib şirkətlərlə müqavilələr imzalanmışdır:

LOT 1 - Dərman ləvazimatları:
"Avromed Company" QSC
"Zeytun Pharmaceutical" MMC

LOT 2 - Kimyəvi maddələr, reaktivlər, reagentlər, testlər, test-dəstlər, qidalı mühitlər, laboratoriya analizləri üçün diaqnostika vasitələri və qablar:
"Labservis Ltd" MMC
"Nəsil Qrup" MMC
"Albatros Helt Keyr" MMC

LOT 3 - Sarğı materialları, tibbi təyinatlı vasitələr və tibbi ləvazimatlar:
"Avromed Company"QSC
"Zeytun Pharmaceuticals"MMC
"Arash Medical Company" MMC
"Arzu.S 2017" MMC

LOT 4 - Talassemiyalı xəstələr üçün leykostar filtr, talasset və digər tibbi ləvazimatlar:
"Zeytun Pharmaceutical" MMC
"Avromed Company" QSC

LOT 5 - Maye azot və oksigen alışı üzrə iştirakçı sayı yetərsay olmadığına görə ləğv olunmuşdur.

Tender komissiyası

B İ L D İ R İ Ş

Bakı Şəhər Fəvvarələrinin İstismarı İdarəsi

açıq tender müddətinin uzadılması haqqında

Bakı Şəhər Fəvvarələrinin İstismarı İdarəsi "Azərbaycan" qəzetinin 30 mart 2018-ci il tarixli 70 (7797) nömrəli və 12 aprel 2018-ci il tarixli 81 (7808) nömrəli sayında dərc olunmuş LOT-1 Bakı Şəhər Fəvvarələrinin İstismarı İdarəsi mal-materialların satın alınması üzrə tender təklifləri və bank təminatı sənədlərinin təqdim olunması 13 iyun 2018-ci il saat 18:00-a qədər, zərflərin açılması 14 iyun 2018-ci il saat 17:00-a qədər uzadılır.

Ünvan: Bakı şəhəri, S.Əsgərova küçəsi, 105
Telefon: (012) 597-07-56

Tender komissiyası

ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Ali Məhkəməsinin sabiq sədr müavini, əməkdar hüquqşünas

OQTAY MAQSUDOVUN

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Ali Məhkəmənin sabiq hakimi

OQTAY MAQSUDOVUN

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi əməkdar hüquqşünas, Ali Məhkəmənin sabiq hakimi

OQTAY MAQSUDOVUN

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradov və universitetin kollektivi Sadıqovlar ailəsinə əzizləri

YASƏMƏN MƏMMƏDOVANIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəlla, IV mərtəbə
e-mail: secretary@azerbaijan-news.az az_reklam@azeronline.com azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8770
Sifariş 1432